QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 173 (6373) 24 sentyabr 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Milli Qurtuluş Partiyasının sabiq sədrinə YAP-ın üzvlük vəsiqəsi təqdim olunub



Bax 4

## "Ağ ölüm"ə qarşı mübarizə

Bəşəriyyət üçün bəla olan, irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biri də narkomaniyadır. Narkotik asılılığı beyin xəstəliyidir. Başqa sözlə, asılılıq yaradan maddələr uzun müddət istifadə edildikdə...



Bax 6

## Medianın İnkişafı Agentliyində məişət zorakılığı ilə bağlı müzakirə aparılıb



Bax 4

## "Ermənistan xaricdən muzdlu və əcnəbi döyüşçülər cəlb edərək onları Azərbaycana qarşı istifadə edirdi"

BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub



Bax 2

## Arazın suyu kimi Bakının da səbri daşa bilər!



Bax 10

## İpoteka qaydaları sadələşdirilir?

"Cənab Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İpoteka və Kredit...



Bax 16

## 27 Sentyabr - ZƏFƏRƏ aparan yol!

Azərbaycan Prezidenti, Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında...



Bax 8





## Rusiya və Ermənistanı şoka salan əməliyyat - Qarabağda nə baş verir?



## Prezidentin yeni təyinatlarına paytaxt sakinlərinin BAXIŞI - SORĞU

Prezident tərəfindən yeni təyinatlar həyata keçirilib. Bununla bağlı SİA olaraq paytaxt sakinləri arasında...

Bax 7



## YAP Veteranlar Şurasının üzvü Kərim Hacıxan oğlu Kərimov vəfat etmişdir

Yeni Azərbaycan Partiyasına ağır itki üz vermişdir. YAP Veteranlar Şurasının üzvü, "91-lər"in nümayəndəsi Kərim Hacıxan oğlu Kərimov ömrünün...

Bax 4



## Vüqar Rəhimzadə: Ulu öndər Heydər Əliyevin yeni neft strategiyası Azərbaycanın xoşbəxt gələcəyinin təminatçısıdır

Bax 7

## Laşa Breqvadze: "Azərbaycan öz gücünü 44 günlük müharibə zamanı praktikada göstərdi"



Bax 15

## Əli Kərimli separatizmin carçısı rolunda



Bax 14

## Benzema La Liqanın tarixinə düşdü



Bax 16

# "Ermənistan xaricdən muzdlu və əcnəbi döyüşçülər cəlb edərək onları Azərbaycana qarşı istifadə edirdi"

*BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub*



**BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri davam edir. AZƏRTAC xəbər verir ki, sentyabrın 23-də ümumi müzakirələr zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub.**

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, COVID-19 pandemiyası bütün dünya üçün ciddi çətinliklər doğurmaqda davam edir: "Hökumətimiz ilk günlərdən əhalinin qorunması və pandemiyanın mənfi təsirinin minimuma endirilməsi məqsədilə mühüm və praktiki tədbirlər həyata keçirir. Azərbaycan cari ilin yanvar ayının ortalarından peyvəndləmə kampaniyasına başlayıb. Hər 100 nəfərə istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən artıqdır. COVID-19-un təsirinə məruz qalmış əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün təqribən 2.7 milyard ABŞ dolları həcmində sosial-iqtisadi paket təqdim edilib.

Düzgün planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində pandemiya ilə bağlı vəziyyət nəzarət altında saxlanılıb və ölkəmizdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldılıb. Pandemiya ilə mübarizə sahəsində Azərbaycanın müfəssəl səyləri beynəlxalq səviyyədə qəbul edilib. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırıb.

Azərbaycan bütün bu fəaliyyəti özünün maliyyə resursları hesabına həyata keçirib. Biz, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı etmişik. Bundan əlavə, dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərmişik.

Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan bir sıra qlobal təşəbbüslər irəli sürüb. 2020-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil etmişdir. Zirvə toplantısı zamanı mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutdu. Təşəbbüslərimizi dəstəkləyən BMT-nin Baş katibi cənab Antonio Quterreşə və bütün dövlətlərə minnətdarlığımı bildirirəm.

Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı öz narazılığını ifadə edib. Biz davam edən "peyvənd millətçiliyi" və peyvəndlərə çıxışla əlaqədar inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında dərinləşən qeyri-bərabərliklə bağlı narahatlığımızı bir daha vurğulayırıq. Belə hərəkətlər inkişaf etməkdə olan ölkələrin öz əhalisini qorumasını əngəlləyir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 75 faizindən çoxu 10 zəngin ölkə tərəfindən alınıb, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır. Bu məsələyə beynəlxalq diqqətin cəlb edilməsi məqsədilə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib. Cari sessiya çərçivəsində Azərbaycan BMT Baş Assambleyasında eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır.

Hesab edirik ki, COVID-19-dan sonra daha yaxşı bərpa üçün güclü, əlaqələndirilmiş və məqsədyönlü qlobal addımlara ehtiyac var. Bu mənada biz pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlayacaq BMT-nin COVID-19-dan sonra qlobal bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif edirik.

Bu il Qoşulmama Hərəkatının yaradılmasının 60 illiyidir. Qoşulmama Hərəkatının 120 üzvünün yekdil qərarı ilə Azərbaycan 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş dövlət və hökumət başçılarının 18-ci Zirvə toplantısında üç il ərzində Hərəkata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan beynəlxalq ədalətin və beynəlxalq hüquq normalarının təmin edilməsini, habelə Hərəkata üzv dövlətlərin legitim maraqlarını güclü şəkildə müdafiə edir. Bu il Hərəkata üzv dövlətlər Azərbaycanın sədrliyini daha bir il - 2023-cü ilin sonuna qədər uzadılmasına dair yekdil qərar qəbul ediblər. Bu, bütün dünya üçün çətin bir dövrdə Azərbaycanın Hərəkata uğurlu və səmərəli şəkildə sədrlik etməsinin təsdiqi və yüksək qiymətləndirilməsinin əlamətidir."

Prezident İlham Əliyev daha sonra qeyd edib ki, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısı qeyd edib ki, Azərbaycan dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlətdir: "Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72.4 xal toplayan Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutmuşdur. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi vurğulanır.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional əlaqələndirmə layihələrinin icrasında fəal iştirak edir və bununla da Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Biz Bakı Beynəlxalq Ticarət Limanını istifadəyə vermişik ki, onun yükaşırma qabiliyyəti 15 milyon tona bərabərdir və ehtiyacdan asılı olaraq bu həcm 25 milyon tona qədər artırıla bilər.

Azərbaycan Paris İqlim Sazişini ratifikasiya etmiş, baza ili - 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Bununla yanaşı, biz Paris Sazişi çərçivəsində 2050-ci il üçün şərti hədəflərin müəyyən edilməsi imkanlarını araşdırırıq.

Hazırda ölkənin ümumi enerji istehsalında bərpa olunan enerjinin payı 17 faiz təşkil edir. Hədəfimiz 2030-cu ilə qədər bu rəqəmi 30 faizə çatdırmaqdır. Növbəti 3-4 il ərzində ümumi gücü 700 meqavat təşkil edəcək 3 külək və günəş elektrik stansiyalarının inşasına sərmayə qoyuluşuna dair üç böyük beynəlxalq enerji şirkəti ilə müqavilələr imzalanıb. Layihələrdən biri 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur bölgəsində həyata keçiriləcək. Bu 240 meqavat gücündə günəş elektrik stansiyası Azərbaycanın azad olunmuş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacaqdır. Mən digər beynəlxalq enerji şirkətlərini də Azərbaycanın azad olunmuş ərazilərində yaşıl enerji layihələrinə sərmayə qoymağa dəvət edirəm.

Mən azad edilmiş Qarabağı və Şərqi Zəngəzuru bu yaxınlarda Yaşıl Enerji Zonası elan etmişəm. Azərbaycanın azad olunmuş ərazilərinin 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi olmaqla təsdiq edilmiş bərpa olunan enerji potensialı var.

Xam neft və qaz ixracı ilə yanaşı, Azərbaycan son illərdə elektrik enerjisinin ixracatçısına çevrilib. Bu gün biz dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edirik. Eyni zamanda, əhalimizin artması və iqtisadi inkişaf ilə əlaqədar daxili enerji istehlakı da artmaqdadır. Cari ilin 8 ayı ərzində Azərbaycanın qeyri-neft sənayesi 18.4 faiz artmışdır.

Xanımlar və cənablar.

Azərbaycan xalqı öz kökünə, tarixinə, dilinə və ənənələrinə olduqca bağlı bir xalqdır. Mən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə bu ili "Nizami Gəncəvi İli" elan etmişəm. XII əsrdə Nizami Gəncəvinin öz əsərlərində təbliğ etdiyi sülh, ədalət, humanizm, azadlıq və bərabərlik kimi ideal və dəyərlər BMT-nin təşviq və müdafiə etdiyi prinsiplərlə üst-üstə düşür.

Biz Azərbaycanda multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyirik. Azərbaycan dünyada tolerantlığın, müxtəlif dini və etnik qrupların nümayəndələrinin dinc birgəyaşayışının nümunəsi sayılır. 2008-ci ildə Azərbaycanın təşəbbüsü ilə başlanılmış və müsəlman dünyası ilə Avropa arasında dialoq və əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyan "Bakı Prosesi" BMT tərəfindən güclü şəkildə dəstəklənir. BMT Baş Assambleyasının qətnamələrində Azərbaycanda müntəzəm olaraq təşkil olunan Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumu "mədəniyyətlərarası dialoqun təşviqi üçün mühüm qlobal platforma" olaraq tanınır.

Xanımlar və cənablar.

Ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışım zamanı mən sizin diqqətinizi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinə və Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltdim. Bu gün qurur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu. Təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, yüzlərlə dinc insanı, o cümlədən 106 qadını və 63 uşağı qətlə yetirmişdir. 1275 azərbaycanlı əsir götürülmüşdür, onların 150-si hələ də itkin hesab olunur. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Ardı Səh. 3

# "Ermənistan xaricdən muzdlu və əcnəbi döyüşçülər cəlb edərək onları Azərbaycana qarşı istifadə edirdi"

*BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub*

Əvvəli Səh. 2

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeydşərtsiz çıxarılmasını tələb edirdi. Lakin Ermənistan bu və BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bənzər qərarlara məhəl qoymamışdır.

BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, bizə gəldikdə 27 il icra olunmamış qaldı. Bu isə ikili standartların bariz nümunəsidir. Selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var.

ATƏT-in Minsk qrupu Ermənistan və Azərbaycan arasında münaqişənin həllinə nail olmaq məqsədilə 1992-ci ildə təsis edilmişdir. ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanı Azərbaycana qarşı hərbi təcavüzə son qoymağa məcbur etmək üçün qətiyyətli addımlar atsaydılar, onda üzərlərinə düşən vəzifələrin icrasına nail ola bilərdilər. Münaqişə dövründə Ermənistan öz yanaşması və hərəkətləri ilə nümayiş etdirirdi ki, onun yeganə məqsədi status-kvonu saxlamaq və işğalı möhkəmləndirməkdir. Mən dəfələrlə Ermənistana qarşı sanksiyaların tətbiq edilməsinin vacibliyi məsələsini qaldırmışdım. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etmək üçün Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilmədi.

2018-ci ildə Ermənistanda hərbi cinayətkarlar Köçəryan-Sarkisyan rejimi devrildi. Bizim Ermənistanın yeni hökumətinin ciddi şəkildə danışıqlarda iştirak edəcəyi ilə bağlı müəyyən ümidlərimiz var idi. Biz Ermənistandan gələn istənilən müsbət siqnala cavab verməyə hazır idik. 2018-2019-cu illər keçmiş təmas xəttində ən sakit dövrlərdən biri idi. Lakin, Azərbaycanın müsbət addımlarına baxmayaraq, Ermənistanda rejimin dəyişməsi real dəyişikliklərlə nəticələnmədi. Ermənistanın yeni hökuməti də Azərbaycanla dinc qonşuluq əvəzinə, işğalın davam etdirilməsi yolunu seçdi.

Münaqişənin son iki ili ərzində Ermənistan qəsdən danışıqlar prosesini məhv etdi. Ermənistan hökuməti "Qarabağ Ermənistandır və nöqtə" və "bir qarış belə işğal olunmuş torpaq qaytarılmayacaq" kimi bir sıra təxribatçı bəyanat və hərəkətlərə yol verdi. Ermənistanın o vaxtkı müdafiə naziri açıq şəkildə Azərbaycanı yeni təcavüz və yeni işğal ilə hədələdi. Ermənistan qəbuledilməz və əsassız "yeddi şərt" irəli sürərək, danışıqlar formatının dəyişdirilməsi, danışıqlara sıfırdan başlanılması və Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə yaradılmış qondarma rejimin danışıqlar prosesinə cəlb edilməsini tələb etdi. Danışıqların formatının və mahiyyətinin dəyişdirilməsi cəhdi Ermənistanın məsuliyyətsiz və təhlükəli hərəkətləri səbəbindən fəaliyyəti iflic olmuş ATƏT-in Minsk qrupunun həmsədrləri üçün xoşagəlməz sürpriz oldu.

Bundan əlavə, Cenevrə konvensiyaları da daxil olmaqla, beynəlxalq hüququn kobud şəkildə pozulması ilə Ermənistan açıq şəkildə qanunsuz məskunlaşdırma siyasətini həyata keçirərək, əsasən Yaxın Şərqdən olan erməni əsilli şəxsləri Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirirdi. İllər ərzində hökm sürən cəzasızlıqdan ruhlanan Ermənistan təcavüzün nəticələrini möhkəmləndirmək və qanunsuz məskunlaşdırmanı sürətləndirmək üçün Ermənistandan işğal olunmuş ərazilərimizə yeni yolun inşa ediləcəyini bəyan edirdi.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədi boyu hərbi təxribat törətdi. Azərbaycanın Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində 13 hərbçi və mülki vətəndaş həlak oldu. Daha sonra avqust ayında Ermənistanın diversiya qrupu keçmiş təmas xəttini keçərək Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı terror aktları törətməyə cəhd etdi, lakin bunun qarşısı uğurla alındı. Ötən il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsindəki çıxışımda mən xəbərdarlıq etmişdim ki, "Ermənistan rəhbərliyinin düşmən, Azərbaycanofob bəyanatları və təxribatları Ermənistanın Azərbaycana qarşı yeni hərbi təcavüzə hazırlaşdığını nümayiş etdirir".

Bundan üç gün sonra - sentyabrın 27-də Ermənistan Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərinə qarşı irimiqyaslı hücuma başladı. Buna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək, öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı.

44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayonlarımızı və şəhərlərimizi - Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Füzuli, Goranboy, Tərtəri intensiv şəkildə atəşə tuturdu. Ermənistan, həmçinin cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərləri də atəşə tuturdu. Raketlərdən biri Azərbaycanın hava hücumundan müdafiə qoşunları tərəfindən Bakının yaxınlığında yerləşən Xızı üzərində zərərsizləşdirilmişdir. Bu isə onu göstərir ki, paytaxt Bakı da Ermənistanın raket hücumlarının hədəfi idi. Ermənistan "Skad" və "İsgəndər-M" tipli ballistik raketlərdən, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli sursatlardan istifadə edirdi. Ermənistanın bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilib, 450 nəfərdən çox insan yaralanıb. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər dağıdılıb və ya onlara ciddi zərər dəyib.

Hərbçilər və mülki əhali arasında fərq qoyulmasına dair beynəlxalq humanitar hüququn fundamental prinsiplərinə riayət edən Azərbaycan Ermənistan tərəfindən dinc sakinlərin hədəfə alınması kimi qəddar hərbi cinayətlərə oxşar formada cavab vermədi. Ermənistan, eyni zamanda, xaricdən muzdlu və əcnəbi döyüşçülər cəlb edərək onları Azərbaycana qarşı istifadə edirdi.

44 günlük müharibə ərzində Azərbaycan işğal olunmuş ərazilərinin böyük bir hissəsini, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini azad etdi. Ümumilikdə, döyüş meydanında 300-dən çox şəhər və kənd azad edilmişdir. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən - Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır.

Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə biz Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratmışıq. Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram.

Azərbaycanın keçmiş işğal olunmuş ərazilərində Ermənistan tərəfindən illər ərzində çoxqatlı müdafiə xətlərinin və uzun sərgələr, tunel və bunkerlərdən ibarət istehkamların qurulması sübut edir ki, Ermənistan heç bir vəchlə bu əraziləri qaytarmaq niyyətində deyildi.

Təqribən 30 illik işğal ərzində Ermənistan qəsdən bütün şəhər və kəndləri dağıtmış, bütün mədəni və dini abidələri viran qoyaraq, talayaraq, onları əsl urbisid - şəhərlərə qarşı genosid və kultursid - mədəniyyətə qarşı genosid nümunələrinə çevirmişdir. Yəqin ki, İkinci Dünya müharibəsindən bəri şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Ermənistan bu ərazilərdə əsrlər boyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, onu "Qafqazın Hirosiması" adlandırırlar. Füzuli şəhərinin işğaldan azad olunmasından sonra ordumuz orada bir dənə də salamat bina tapa bilmirdi ki, onun üzərində bayrağımızı dalğalandırsın.

Ermənistanın işğalı altında olmuş ərazilərdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb və təhqir edilib, onlardan donuz və inək tövləsi kimi istifadə edilib. Bu isə bütün dünya müsəlmanlarına qarşı hörmətsizlikdir. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb.

Azad olunmuş ərazilərə səfərlər zamanı xarici diplomatlar, beynəlxalq təşkilatların nümayəndələri və xarici jurnalistlər Ermənistan tərəfindən törədilən vəhşiliyin şahidi olmuşlar. Şəhər və kəndlərin, o cümlədən Azərbaycan xalqına məxsus mədəni və dini irsin tamamilə dağıdılması beynəlxalq media və müstəqil ekspertlər tərəfindən geniş şəkildə sənədləşdirilib və işıqlandırılıb.

Azərbaycan tərəfindən hər bir ölkənin BMT-dəki nümayəndəliyinə şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab təqdim edilib. Kitabda Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv olunması öz əksini tapıb.

Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Meşələrimizin 60 min hektarı məhv edilib, kəsilib və oğurlanıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərlənib.

Ermənistan keçmiş işğal olunmuş ərazilərdə bizim su ehtiyatlarımızdan süni ekoloji fəlakət yaratmaq üçün istifadə edib. 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası "Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı qətnamə qəbul edərək, Ermənistan hökumətindən su ehtiyatlarından siyasi təsir və ya təzyiq aləti kimi istifadəsinə son qoyulmasını tələb etmişdir.

Ermənistan həmin qətnaməyə qətiyyən məhəl qoymadı və Sərsəng su anbarını humanitar və ekoloji terrorizm aləti kimi istifadə etməyə davam etdi. Ermənistan qəsdən qış aylarında su anbarını açaraq ətraf ərazilərdə daşqın törədir, yay aylarında isə suyu kəsərək keçmiş cəbhəyanı bölgədə yaşayan insanları və təsərrüfatları sudan məhrum edirdi. Ermənistan transsərhəd Oxçuçay çayını kəskin şəkildə çirkləndirir. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi ərazinin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyur. Təəssüflər olsun ki, bəzi xarici şirkətlər də bu ekoloji cinayətdə iştirak edir.

Ermənistan keçmişdə işğal altında olan ərazilərimizdə qanunsuz olaraq təbii sərvətlərimizi, o cümlədən qızıl və digər qiymətli metal və mineralları istismar etmiş, onları xarici bazarlara ixrac etmişdir. Tutarlı faktlara əsaslanaraq biz keçmişdə işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı və digər qanunsuz fəaliyyətlə məşğul olan müxtəlif ölkələrdən olan xarici şirkətləri müəyyən etmişik. Biz artıq həmin şirkətlərə qarşı hüquqi tədbirlərə başlamışıq. Onlar keçmişdə işğal altında olan ərazilərdə təbii sərvətlərimizi qanunsuz istismar etdiklərinə görə məsuliyyətə cəlb ediləcəklər.

Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Ermənistan onların taleyi ilə bağlı bizə məlumat verməlidir. Bizdə olan etibarlı məlumatlara əsasən, onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib və beynəlxalq humanitar hüquqa zidd olaraq Ermənistan ordusu tərəfindən kütləvi məzarlarda basdırılıb. Ermənistan hərbi cinayətkarları tərəfindən qətlə yetirilmiş 12 mülki şəxsin qalıqları 2021-ci ilin aprel ayında işğaldan azad olunmuş Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarda tapılıb. Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır.

Ermənistanda çevriliş nəticəsində hakimiyyətə gəlmiş və 1998-2018-ci illərdə hakimiyyətdə olmuş səhra komandirləri Azərbaycan ərazilərinin 30 il qədər davam edən işğalı ərzində məkrli arzularına və məqsədlərinə çatmaqda uğursuzluğa düçar oldular. Əksinə, 2017-ci ildə BMT Baş Assambleyasındakı çıxışımda qeyd etdiyim kimi, Ermənistan tam iflasa uğramış dövlətə çevrilib. Ermənistan o dərəcədə zəifləyib ki, heç özü sərhədlərini belə qorumaq iqtidarında deyil.

Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Beynəlxalq ictimaiyyət bu mənada müsbət rol oynamalı və sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməlidir. Ermənistanda revanşizmin və onun silahlandırılmasının birbaşa və ya dolayı şəkildə dəstəklənməsi cəhdlərinə son qoyulmalıdır. Ümid edirik ki, çoxdan gözlənilən sülh, təhlükəsizlik və sabitlik, nəhayət, Cənubi Qafqazda bərqərar olunacaq. Azərbaycan regional sülhə və inkişafa töhfə verən, onun gücləndirilməsinə xidmət edən ardıcıl səylərini davam edəcəkdir."

# Milli Qurtuluş Partiyasının sabiq sədrinə YAP-ın üzvlük vəsiqəsi təqdim olunub

Sentyabrın 23-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın VII Qurultayında YAP-a birləşən Milli Qurtuluş Partiyasının sabiq sədri Vüqar Bəyturana üzvlük vəsiqəsi təqdim olunub. SİA-nın məlumatına görə, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu il martın 5-də keçirilən YAP-ın VII Qurultayında mühüm qərarlar qəbul olunub. Bu qərarlar sırasında 6 siyasi partiyanın YAP-a qoşulması da böyük əhəmiyyət daşıyır.





Vətən müharibəsinin başlanmasından bir ilə yaxın vaxt ötdüyünü deyən YAP Sədrinin müavini qeyd edib ki, 44 gün davam edən bu müharibədə qələbəmizi şərtləndirən əsas amillərdən biri xalq-iqtidar birliyi və vətəndaş həmrəyliyidir. Müharibə başlayan gün ölkədə fəaliyyət göstərən siyasi partiyaların birgə bəyanat verərək Müzəffər Ali Baş Komandana və ordumuza dəstək nümayiş etdirməsi bunu bir daha təsdiqləyir. Eyni zamanda, 6 siyasi partiyanın YAP-a qoşulması da Azərbaycanda milli həmrəyliyin növbəti nümunəsidir.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyasının qarşısında böyük vəzifələr dayanır. Bu vəzifələrin yerinə yetirilməsi üçün partiya üzvləri monolit qüvvə kimi bütün imkanlarını səfərbər etməlidir. Tahir Budaqov YAP-ın sıralarına qoşulmuş 6 siyasi partiyanın nümayəndələrinin də partiyamızın həyatında fəal iştirak edəcəyinə inandığını söyləyib.

Milli Qurtuluş Partiyasının sabiq sədri Vüqar Bəyturan göstərilən etimada görə Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevə təşəkkür edib və bundan sonra YAP üzvü kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacağına söz verib. Sonda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın üzvlük vəsiqəsini Vüqar Bəyturana təqdim edib.

# YAP Veteranlar Şurasının təşkilatçılığı ilə konfrans keçirilib

**Sentyabrın 23-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə "Tarixi zəfər salnaməsi" mövzusunda videoformatda konfrans keçirilib. SİA-nın məlumatına görə, öncə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, torpalarımızın işğaldan azad edilməsi uğrunda canlarından keçən Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Sonra YAP Veteranlar Şurasının üzvlərinin, partiyanın Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdam, Şuşa, Ağcabədi, Tərtər, Goranboy, Bərdə, Laçın, Cəbrayıl, Xocalı, Füzuli, Xocavənd rayon təşkilatlarının fəal üzvlərinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, 44 günün tarixə yazdığı qürurverici, şanlı səhifə harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya böyük sevinc bəxş etdi. Bu xoşbəxtliyi bizlərə yaşadan dövlətimizin başçısı, Ali Baş Komandana, rəşadətli Azərbaycan Ordusuna, bütün əsgər və zabit heyətinə minnətdarlığımızı ifadə edirik. 44 gün davam edən Vətən müharibəsi bir daha Prezident-xalq-ordu birliyini nümayiş etdirdi. Xalqımız tam əmin idi ki, dövlətimizin qətiyyətli mövqeyi, Ordumuzun gücü, qüdrəti sayəsində uğurla həyata keçirilən əks-hücum əməliyyatları otuz ildən artıq davam edən işğala son qoyacaq! Bu gün Zəfərimizin yaratdığı yeni reallıqlardan bəhs edir, işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən bərpa və quruculuq işlərindən danışırıq. Zəfərin mübarək, Azərbaycan!

Vətən müaribəsinin iştirakçısı, polkovnik-leytenant Adil Nastakalov dövlətimizin ordu quruculuğu istiqamətində atdığı addımlardan geniş bəhs edib. Bildirib ki, Azərbaycan bu tarixi Zəfəri ilə dünyanın hərb tarixinə yeni səhifə yazıb. Bu gün ölkəmizin müharibə təcrübəsi, Vətən müharibəsində tətbiq etdiyi strategiya beynəlxalq ekspertlər tərəfindən öyrənilir.

YAP Veteranlar Şurasının üzvü Adilə Abasova Zəfərimizin tariximizin ən parlaq səhifəsi olduğunu önə çəkərək bu uğura qədər keçilən yola nəzər salıb. Bildirib ki, ulu öndər Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin diplomatik mübarizədə, döyüş meydanında göstərdiyi qətiyyət, ordumuzun gücünün, qüdrətinin artması yönümündə atdığı addımlar öz müsbət nəticəsini verdi.

Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, 44 gündə 30 il işğal altında olan torpaqlarımızı azad etmək heç də asan deyildi. Azərbaycan Ordusu buna hazır idi. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti bu Qələbəmizi təmin etdi.

Aprel döyüşlərinin şəhidi polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə qeyd edib ki, Aprel döyüşləri Zəfərimizin başlanğıcıdır. Aprel döyüşləri həm gənclərimizin şüurunda yeniliklər etdi, həm torpaqlarımıza qayıtmaq ideyasını bir daha gücləndirdi, sabaha ümidləri daha da artırdı. Müzəffər Ali Baş Komandanın qətiyyəti, Azərbaycan ordusunun rəşadəti sayəsində torpaqlarımız tarixi sahibinə qovuşdu.

Tədbir diskusiya şəklində davam etdirilib. Partiya fəalları Elmir Məmmədovun, Həsən Şirinovun Zəfərimizə gedən yolu özündə əks etdirən sualları cavablandırılıb.



## YAP Veteranlar Şurasının üzvü Kərim Hacıxan oğlu Kərimov vəfat etmişdir

**Yeni Azərbaycan Partiyasına ağır itki üz vermişdir. YAP Veteranlar Şurasının üzvü, "91-lər"in nümayəndəsi Kərim Hacıxan oğlu Kərimov ömrünün 85-ci ilində vəfat etmişdir.**

Kərim Hacıxan oğlu Kərimov 18 fevral 1936-cı ildə Qax rayonunun İlisu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Şəki Pedaqoji texnikumuna daxil olmuşdur. 1955-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirdikdən sonra N.Tusi adına Azərbaycan Dövlət Pedoqoji İnstitutunun tarix, dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur. 1960-cı ildə həmin ali məktəbi fərqlənmə diplomu ilə başa vurmuşdur.

Kərim Kərimov 1960-1995-ci illərdə Tədriskurs kombinatının direktoru, Yüngül Sənaye Nazirliyinin kommunal-təsərrüfat idarəsinin rəisi vəzifəsində, kadrlarla iş sahəsində çalışmışdır.

Kərim Kərimov 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası başlanan zaman əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, həmin dövrlərdə respublikada mövcud olan mürəkkəb ictimai-siyasi proseslərə münasibətdə özünün prinsipiallığı ilə fərqlənmişdir. O zaman respublikamızın bir çox vətənpərvər ziyalıları kimi, Kərim Kərimov da ölkəmizin düşdüyü çətin durumdan yeganə xilas yolunu ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsində görürdü. O, Yeni Azərbaycan Partiyasının yaradılması təşəbbüsü ilə çıxış edən, bu məqsədlə ulu öndər Heydər Əliyevə müraciət edən 91 ziyalıdan biri olmuşdur.

Kərim Kərimov 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində YAP-ın təsis konfransında iştirak etmiş, konfransda partiyanın İdarə Heyətinin üzvü seçilmişdir.

YAP İdarə Heyətinin üzvü kimi partiyanın təşkilatlanması, onun yerli strukturlarının formalaşdırılmasında yaxından iştirak etmişdir. 1993-cü ilin yanvar ayında yaradılan YAP Nərimanov rayon təşkilatının ilk sədri seçilmişdir.

Kərim Kərimov 1995-ci ilin noyabr ayında müstəqil Azərbaycan Respublikasının ilk parlamentinin üzvü-Milli Məclisin deputatı seçilmişdir. O, Milli Məclisin İnsan hüquqları daimi komissiyasının sədri kimi insan hüquq və azadlıqlarına dair milli qanunvericiliyin formalaşmasında yaxından iştirak etmişdir.

Kərim Kərimov 2000-ci ildə də II çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş və parlamentin İntizam komissiyasına rəhbərlik etmişdir.

O, bütün fəaliyyəti dövründə hər zaman ulu öndər Heydər Əliyevin ideyalarına və Prezident İlham Əliyevin siyasətinə sadiq qalmış, dövlətimizin həyata keçirdiyi uğurlu siyasətin təbliğində fəal iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Kərim Kərimov respublikamızın ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Kərim Kərimovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

***Yeni Azərbaycan Partiyası***
***Mərkəzi Aparatı***

# Medianın İnkişafı Agentliyində məişət zorakılığı ilə bağlı müzakirə aparılıb

23 sentyabr 2021-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi" adlı Tvinninq layihəsi çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində görüş keçirilib. SİA-nın məlumatına görə, görüşdə Tvinninq layihəsinin "İctimai maarifləndirmə kampaniyasının aparılması" adlı komponenti çərçivəsində Bakıya səfər edən avstriyalı ekspertlər Thomas Hainlen və Manuela Hargassner-Delpos, rezident tvinninq əlaqələndiricisi Laurynas Totoraitis, eləcə də Dövlət Komitəsinin İnformasiya şöbəsinin müdiri Elgün Səfərov iştirak edib.



Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qurumun fəaliyyəti barədə məlumat verib. Mediada məişət zorakılığı məsələlərinin işıqlandırılması ilə bağlı müxtəlif məqamları müzakirə edib və bu sahədə jurnalistlərin məlumatlılığının artırılmasının əhəmiyyətini vurğulayıb. Rezident tvinninq əlaqələndiricisi Laurynas Totoraitis isə media nümayəndələri üçün nəzərdə tutulan təlimlərin təşkilində MEDİA Agentliyinin rolunu xüsusi qeyd edib.

Görüş zamanı bildirilib ki, bu ekspert missiyası çərçivəsində məişət zorakılığı sahəsində ictimai maarifləndirmə kampaniyasının aparılması üzrə proqramın işlənib hazırlanması nəzərdə tutulub. Proqram Tvinninq layihəsinin ekspertlərinin dəstəyi və Dövlət Komitəsinin müvafiq əməkdaşları və media nümayəndələrinin iştirakı ilə işlənib hazırlanacaq. Qeyd edək ki, tvinninq layihəsinin məqsədi məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi sahəsində dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin potensialının gücləndirilməsidir.





# "Əsrin müqaviləsi" - uğur strategiyası

**"Əsrin müqaviləsi", bu müqavilənin reallaşdırılması, həyata keçirilməsi və Azərbaycanın neft sərvətlərinin Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə dünya bazarlarına çıxarılması ölkəmizin neft diplomatiyası tarixinin ən mühüm hadisəsidir, deməkdə hər kəs haqlıdır. Bu müqavilə, bütövlükdə dünyanın neft diplomatiyası tarixində də böyük dönüş, eləcə də ən böyük, ən möhtəşəm bir qələbədir. "Əsrin müqaviləsi" sazişi, ölkəmizin iqtisadi cəhətdən müstəqillik əldə etməsi yolunda irəliyə doğru atılan ən mühhiş bir addımdır.**

Qarşısında nə qədər böyük çətinliklərin, ağır maneələrin və təhlükələrin olduğunu bildiyi halda, müstəqil neft strategiyasının formalaşdırılması kimi çox ağır bir vəzifəni öhdəsinə götürən Ümummilli Lider Heydər Əliyev ölkəmizin neft diplomatiyasının ilk və uğurlu addımlarını atmağa müvəffəq oldu. Ulu Öndər Azərbaycanın neft strategiyasını formalaşdırarkən ölkəmiz üçün bir-birindən önəmli, bir-birindən vacib olan əsas iki tarixi vəzifəni həll etməyi qarşıya məqsəd qoydu və bunun öhdəsindən layiqincə gəldi. Əvvəla, "Əsrin müqaviləsi" imzalanmaqla, böyük dövlətlərin diqqəti Azərbaycanın əsas sərvətinə cəlb olundu və bununla da, o zamanlar düşdüyü ağır iqtisadi böhrandan, maliyyə fəlakətindən ölkəmiz xilas oldu. Digər tərəfdən isə, "Əsrin müqaviləsi" böyük dövlətlərin xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin xeyrinə böyük bir dönüş yaratdı. Bu dönüşlə yanaşı, Azərbaycanın beynəlxalq təhlükəsizliyi təmin edildi, 44 günşük müharibədə qələbəmizə, torpaqlarımızın işğaldan azad edilməsinə əsaslı zəmin yaradıldı və bu gün biz bunun əyani şahidiyik.

"Əsrin müqaviləsi" imzalanmaqla, neft strategiyası reallaşdırılmaqla regionun siyasi mənzərəsi tamamilə dəyişdi və ölkəmiz regionun aparıcı dövlətinə çevrildi. Bu müqavilənin imzalanması, ələlxüsus Bakı-Ceyhan bütün türk dünyasını birləşdirdi. Doğrudur, dini, dili və adət-ənənələri bir olan ölkələrimiz arasında tarixi bağlılıq, qardaşlığımızın tarixi kökləri əvvəldən də var idi, lakin Türkiyə ilə Azərbaycan arasında bağlılıq, yaxınlıq, qardaşlıq bu müqavilənin imzalanmasından sonra daha da artdı, hətta ən yüksək səviyyəyə çatdı. Bütün bunlar regionda Azərbaycanın imkanlarını, potensialını daha da artırdı. Beləliklə də Azərbaycan nəinki bölgədə, bütün dünyada söz sahibi oldu və elə ən böyük həqiqət də bundan ibarət idi ki, ölkəmiz regionda möhkəmlənmək uğrunda bir-biri ilə ölüm-dirim rəqabəti aparan nəhəng güc mərkəzləri ilə üz-üzə idi. Belə bir şəraitdə Bakı neftinin qərb bazarlarına çıxarılmasına əngəl törədən qüvvələr "Əsrin müqaviləsi"nin baş tutmaması üçün min cür siyasi fitnəkarlıqlar edirdilər. Onlar təxribatlara əl atır, sui-qəsdlərə qədər hər cür çirkin əməllərə rəvac verir, bir sözlə, əllərindən gələni belə əsirgəmirdilər. Belə bir şəraitdə Azərbaycanın bütün bunlara qarşı çıxaraq qələbə qazanacağı bəziləri üçün inandırıcı görünmürdü. Amma həqiqətən də Azərbaycan qələbə qazandı və "Əsrin müqaviləsi" imzalandı da, həyata keçirildi, gerçəkləşdirildi də. Amma unutmaq lazım deyil ki, sözün əsl mənasında bu qələbə məhz dahi lider, Ulu Öndər Heydər Əliyevin müdrikliyinin, cəsarətli və məqsədyönlü siyasətinin, irəli sürdüyü uğurlu, düşünülmüş siyasətin qələbəsi idi.

Nəzərə çatdırmaq yerinə düşərdi ki, dünyanın böyük dövlətlərinin diqqəti Azərbaycana məhz bu müqavilənin reallaşması nəticəsində yönəldi. Xalqımız məhz bu siyasət sayəsində, bu müqavilənin imzalanmasından sonra ağır iqtisadi tənəzzülə son qoydu, firavan həyat yoluna qədəm qoydu. Bununla da müstəqilliyimizi qoruyub saxlaya bildik və əldən vermədik. Hətta ölkəmiz bundan sonra regionun lider dövlətinə, yaşadığımız dövrün ən sürətlə inkişaf edən ölkəsinə çevrildi və dünya siyasətində söz sahibi olaraq qəbul edildi. Neft strategiyamız nəinki Azərbaycanın, hətta regionun belə önəmini daha da artırdı və Azərbaycan neft strategiyasının əsası, təməli sayılır. Bu müqavilənin gerçəkləşməsi Azərbaycanın geoiqtisadi və geosiyasi mövqelərinin möhkəmlənməsi üçün böyük rol oynadı. Məhz "Əsrin müqaviləsi"nin ardınca








Avropa ilə Asiyanı, o cümlədən bütün türk dünyasını əlaqələndirən strateji məkana çevrilə bildi.

Bilirik ki, neft hal-hazırda bütün ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm yer tutur, eləcə də hər bir ölkənin sosial-iqtisadi inkişafında böyük əhəmiyyətə malikdir. Azərbaycan üçün isə neftin əhəmiyyəti bununla bitmir. Neft Azərbaycan iqtisadiyyatının dirçəlməsi, sosial rifahın daha da yaxşılaşdırılması, siyasi müstəqilliyin təmin olunmas, beynəlxalq mövqelərimizin möhkəmlənməsi baxımından daha əhəmiyyətlidir.

"Əsrin müqaviləsi" siyasi müstəqilliyin möhkəmlənməsi ilə yanaşı, qabaqcıl dünya təsrübəsinə söykənən liberal iqtisadiyyatın qurulması, müasir sənaye və enerji-kommunikasiya infrastrukturunun yaradılması kimi çoxşaxəli spektri birləşdirən Xəzər dənizindəki zəngin karbohidrogen ehtiyatlarının istismarı sahəsində Azərbaycan ilə xarici şirkətlər arasında qarşılıqlı faydalı və sistemli əməkdaşlıq yarandı. Bu uğurlu tərəfdaşlıq isə yeni konseptual ideyaların, o cümlədən böyük potensiala malik "Şahdəniz-2", TANAP və TAP kimi uğurlu layihələrinin yaranması ilə nəticələndi. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyədə "Petkim Petro - kimya Holdinq" kimi nəhəng neft-kimya kompleksinin nəzarət səhm paketini əldə etməsi, STAR Neft Emalı Zavodunun tikintisinə, Gürcüstanda Kulevi terminalına, Ukraynanın yanacaq-enerji sektoruna, Yunanıstanın qaz - paylayıcı şəbəkəsinə, İsveçrənin, eləcə də bir sıra Şərqi Avropa ölkələrinin, Moldova və Qırğızıstanın iqtisadiyyatına investisiya qoyuluşunu həyata keçirməsi artıq ölkəmizin yüksələn maliyyə-iqtisadi potensialının əyani sübutu, görülən işlərin, uğurlu strategiyanın məntiqi nəticəsi idi.

Beləliklə, milli neft strategiyasının əsasını qoyan "Əsrin müqaviləsi" neft-qaz sənayesinin dirçəlməsi və inkişafına ciddi təkan verməklə yanaşı, həm də Azərbaycanın sosial-iqtisadi yüksəlişinə səbəb oldu. Bir sözlə, "Əsrin müqaviləsi" siyasi müstəqilliyimizin möhkəmlənməsinə əlverişli zəmin yaratdı. Bu müqavilə ölkəmizin dünya birliyinə tamhüquqlu üzv kimi inteqrasiya olunmasına, eləcə də regional əməkdaşlıq və təhlükəsizliyə geniş perspektivlər açdı.

***İnam Hacıyev***



# “Ağ ölüm”ə qarşı mübarizə

**Bəşəriyyət üçün bəla olan, irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biri də narkomaniyadır. Narkotik asılılığı beyin xəstəliyidir. Başqa sözlə, asılılıq yaradan maddələr uzun müddət istifadə edildikdə beyin hüceyrələrində fərqli təsirlərə və dəyişikliklərə səbəb olur. İnsanlar tez -tez narkotikdən istifadə edə biləcəklərini düşünürlər. Ancaq bir müddət sonra maddə istifadəsi nəzarətdən çıxır və insan onlardan istifadə etmək istəməsə belə, beyni onlardan istifadə etməyə davam etməsini istəyir.**

Sıx-sıx narkotik vasitələrinin istifadəsi ilə beynin öz-özünə dayanma mexanizmi pozulur və maddə ilə qarşılaşdıqda beyin yalnız “get və istifadə et” mesajını verir. Beləliklə, insan beynindən gələn “get və istifadə et” mesajını izləyərək zövq almasa da, istifadə etməyə davam edir.

Beynimiz sinir hüceyrələrindən ibarətdir və ətrafımızı qəbul etməyimiz bu sinir hüceyrələri vasitəsi ilə meydana gəlir. Alkoqol və narkotik istifadəsi sinir hüceyrələri arasındakı əlaqəni pozaraq beynimizə bir çox mənfi təsir göstərir.

## Narkotikin insan orqanizminə təsirləri

- Narkotik vasitələrinin istifadəsi beyin funksiyalarını azaldır, yaddaşı zəifledir, balans pozğunluqlarına və demansa səbəb olur.

- Dərmanlar beynin normal fəaliyyətini pozaraq beyni mexanizasiya edir. Narkotik maddələr beyin damarlarının tıxanmasına səbəb olaraq iflicə səbəb olur. Bundan əlavə, beyində səsləri eşitmək və ruhi xəstəliklərin başlaması dərmanların beyinə təsirlərindəndir.

- Narkotik istifadəsi sinir hüceyrələri arasındakı əlaqəni pozduğu üçün beynin işini ləngidir. İnsan yeni şeylər öyrənməkdə və problemləri həll etməkdə çətinlik çəkir.

- Bu maddələrin təsiri altında diqqət tələb edən işləri görmək çox əlverişsizdir, çünki maddə istifadəsi refleksləri yüksək dərəcədə pozur. Bundan əlavə, bəzi narkotik tərkibli dərmanların beyinə mənfi təsirinin və yaratdığı dəyişikliklərin ani ölümə səbəb olduğu bilinir.

- Beyin quruluşundakı dəyişikliklər və sinir hüceyrələrində pisləşmə maddə istifadəsi dayandırılan kimi yaxşılaşmır. Bərpa uzun müddət çəkə bilər. Unudulmamalıdır ki, asılılıq insanın iradəsindən kənar bir beyin xəstəliyidir. Beynin yaxşılaşması üçün narkotikdən və onları xatırladan şeylərdən uzaq olmaq vacibdir.

## Narkotiklərin təsirləri

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyata proseslərə qarşı laqeydlik yaradır. Cəmiyyətin böhranlı dövründə narkomanlıq artır, sosial münasibətlərə mənfi təsir göstərir. Narkomaniya orqanizmin zəifləməsinə bədənin arıqlamasına və fiziki gücün düşməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların, xüsusən də qara ciyər və böyrəklərin funksiyasının pozulmasına gətirib çıxarır.

## Narkotik qəbulunun əsas səbəbləri

1. Maraq
2. Stress
3. Kənar təzyiq
4. Psixi asılılıq

## Narkotiklərin orqanizmə təsirləri

- Erkən ağlını itirmə, şüur itkisi, yuxusuzluq, iflic, sayıqlama, qorxu, xəyal görmə, səs eşitmə, zəka və yaddaş pozğunluqları.

- Ürəkbulanma, qusma, qarın ağrıları, qəbizlik, ishal, mədə və bağırsaq spazmları, qastrit, xora və s.

- Bu zəhərin orqanizmdən atılmasında ən ağır vəzifə bu orqanlara düşməkdə olub, qaraciyər və böyrəklərdə böyük qəza və tıxanmalara, qaraciyərdə çatışmazlıq, piylənmə, sərtləşmə.

- Albumin, qan və sidik çoxalması, tıxanmalar, ağır böyrək xəstəlikləri.

- İşıq və məsafədə uyğunsuzluq, çəplik, gecə korluğu, göz bəbəyi böyüməsi, kiçilməsi, göz adele iflici

- Nəfəs darlığı, öskürək, boğulma hissi, tənəffüs iflici

- Qansızlıq, qan zəhərlənmələri, qan hüceyrələrində şəkil və miqdar dəyişiklikləri, qanın laxtalanması və qanqrenalar.

- Cinsi fəaliyyəti aşağa salır. Narkomanların çox vaxt uşaqları olmur ya da doğulan körpələr eybəcər olur.

## Narkomanlığın əlamətləri

X Solğun dəri
X Göz bəbəyinin genişlənməsi və ya daralması
X Gözlərin qızarması və ya tutqunlaşması.
X Nitqin ləng olması
X Koordinasiyanın pozulması (səndələmə)
X Arıqlama
X Gözlərdə parıltı

**Davranışın dəyişməsi:**
X Biganəliyin artması.
X Fikrini toplamaq çətin olur.
X Tənqidə qarşı ağrılı reaksiya.
X Tez-tez və kəskin olaraq əhvalın dəyişməsi.
X Tanışlar dairəsinin dəyişilməsi.
X Təhsil almağa biganəlik.
X Kobudluğun və tənbəlliyin əmələ gəlməsi.
X Yuxunun pozulması.
X Sudan qorxmaq əlaməti gec-gec çimirlər, ya da heç çimmirlər.

***SİA mövzu ilə bağlı sosioloq Elçin Bayramlının fikirlərini öyrənib:***



“Son dövrlərdə qlobal narkomafiya ənənəvi narkotiklərlə yanaşı, yeni süni kimyəvi narkotiklərin də ucuz qiymətə yayılmasını təşkil edir. Ölkəmizdə də, gənclər arasında belə qorxunc narkotik və psixotrop maddələrin yayılması milli genefondumuza ağır zərbələr vurur. Bu səbəbdən hüquq-mühafizə orqanları, xüsusən, DİN bu hallara qarşı mübarizəni gücləndirib. Azərbaycan cinayətkar qrupların, narkomafiyanın ən az əl-qol aça bildiyi ölkələrdən birinə çevrilib. İndi idarə və ümumən nazirlik xaricdən idarə olunan bu cinayətkar əl-qolları ölkəmizdən tamamilə çəkilməyə məcbur etmək üçün böyük bir müharibəyə başlayıb. Azərbaycan polisi həmişə olduğu kimi bu gün də vətəndaşların keşiyində, dövlətimizin arxasındadır. Vətən müharibəsində polislərimiz də mübarizə apardı və qalib gəldik. İndi isə ondan heç də geri qalmayan daha bir müharibə aparırlar, xalqımızı, gələcəyimizi narkomaniya kimi qorxulu düşməndən xilas etmək uğrunda müqəddəs bir müharibə. Bu müharibədə biz də polisimizin yanında olmalıyıq, bu halda daha tez qalib gələcəyik. Tezliklə narkomaniya üzərində tam və qəti qələbənin əldə olunacağına artıq heç kimdə şübhə yoxdur”.

***Mövzu ilə bağlı psixoloq Fərganə Mehmanqızı fikir bildirib:*** “Narkotik vasitələrdən istifadənin son vaxtlar gündəmə gəlməsinin əsas səbəbi bu kimi maddələrdən zəhərlənmə hallarının çoxalmasıdır.



İnsanlar bir-birini eşidə bilməmək, daxili aqressiya, öz mənliyini tapa bilməmək, cəmiyyətdə və ailədə özünü təsdiq edə bilməmək valideyin və övlad arasında olan psixoloji alyansı qoruya bilməmək insanlarda özgüvənsizlik, asosiallıq, eqoizmin yaranmasına gətirib çıxardır. Bunun nəticəsində də özlərini narkotikada, alkoqolizmdə tapan insanlar artmağa başladı. Bütün bu asılılıqların başında insanın özünü tapmamağıdır. Özünün ailəyə, cəmiyyətə və özünə yararsız olduğunu hiss etməkdir. Bunun iqtisadi vəziyyətlə, maddiyatla heç bir əlaqəsi yoxdur. Ailələr övladları ilə psixoloji alyansı qoruduğu zaman övladları sağlam düşüncəli, ailəyə və cəmiyyətə faydalı şəxsiyyət formalaşanda asılılıqları olmur”.

## Mübarizə necə aparılmalıdır?

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır. Narkomaniya digər vərdişlərə görə daha təhlükəlidir: narkodilerlər - narkotikləri satan insanlar həmişə yeni alıcı axtarışında olur. İl ərzində hər bir təcrübəli narkotik istifadəçisi 4 adam (nəfəri) narkotikə cəlb edir, bunların da əksəriyyəti uşaq və gənclərdir. Onlar maddi imkanı aşağı olan gəncləri tapdıqları kimi asanlıqla maddi imkanı çox yaxşı olan gəncləri də tora sala bilirlər. Valideynlər və övladları arasındakı yaxşı münasibət narkotiklərə qarşı mübarizədə böyük rol oynayır. Valideyn hər zaman övladı ilə ünsiyyətdə olmalıdır. Narkomaniya ilə mübarizədə bütövlükdə cəmiyyətin, dövlətin, xalqın, nəhayət, hər bir şəxsin fərdi və birgə fəaliyyətinə, barışmaz münasibətinə və əməli köməyinə böyük ehtiyac vardır.

Bu problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi xüsusi ilə yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsi prioritet məsələdir. Narkomaniya ilə bağlı problemləri dünya ictimaiyyətinin diqqətində saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan edib. Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli bir prosesdir. Problemin ictimai təhlükəliliyi ondan ibarətdir ki, bir çox cinayətin törənmə səbəbləri arasında birinci sıralarda yer alan narkomanlığa aludəçilik həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır. Narkotizmin vəziyyəti və narkotik vasitələrin ümumi çəkisi rəsmi qaydada aşkar edilmiş cinayətlərdən və müsadirə edilmiş narkotiklərdən başqa, təqribi hesabalamalara da əsaslanır. Bu rəqəmlərin dolğun olması üçün ölkədə əvvəlcə narkomanların düzgün qeydiyyatına nail olunur, daha sonra isə real əməliyyat şəraitinə uyğun tədbirlər keçirilir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra digər məsələlər kimi, bu problemin də həlli öndə saxlanıldı. Müstəqilliyimizin ilk illərində, dövlətçiliyimizin və müstəqilliyimizin təhlükə altında, Azərbaycanın ağır durumla üzüzə qaldığı illərdə üzləşdiyimiz çətinliyi qeyd etməmək mümkün deyil. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizin qarşısında böyük imkanların yaranmasına stimul oldu. Azərbaycanda ictimai-siyasi durumun sabitliyi, normal iqtisadi mühitin yaradılması ölkəmizin iqtisadi qüdrətini daha da artırdı. Müstəqilliyimizin təhlükə altında qaldığı 1990-cı illərin axırlarında ölkəmizdəki özbaşınalıq, hakimiyyətsizlik, gənclərə diqqətin unudulması, narkomanlığa aludəçilik üçün münbit şərait yaratdı. Ulu öndər Heydər Əliyevin gənclərə diqqəti artırması bu bəlanın da qarşısını aldı.

Ulu öndər Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 26 avqust 1996-cı il tarixdə müvafiq fərman imzalamış və problemin həlli istiqamətində həyata keçirilən tədbirlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bu Fərman əsasında 2000-ci ilə qədərki dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, 18 iyun 1999-cu ildə Milli Məclis tərəfindən “Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” qanun qəbul olunub. Bu sənədlərin qəbulunda ümumi məqsəd Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyasını, narkotik vasitələrin və psixotrop maddələrin istehsalını, dərman preparatlarının və xammalın hazırlanmasını qanunla qadağan etməkdir. Dövlət orqanları ilə yanaşı ictimai təşkilatların da bu işdə yüksək fəallığı müsbət nəticələrin əldə olunmasına stimul verir.

Bu gün respublikamızın bir çox rayonlarında narkomanlığın cəmiyyətə zərərinə dair keçirilən silsilə tədbirlərdə də əsas məqsəd maarifləndirmə işinin səviyyəsini yüksəltməkdir. Həmçinin asudə vaxtın səmərəliliyi üçün müxtəlif məşğələlər təşkil edilir, “Narkomaniyaya “yox” adlı aksiyalar, elmi-praktiki konfranslar keçirilir, tədris-təlim proqramlarına narkomanlığın sağlamlığa mənfi təsiri ilə bağlı mövzular daxil edilir, kütləvi idman tədbirlərinin keçirilməsi üçün müvafiq şərait yaradılır, əyani təbliğat vasitələrindən istifadə olunur. Məktəblilər və yeniyetmələr arasında cinayətkarlığın, mənfi meyilli amillərin qarşısını almaq məqsədilə ümumtəhsil məktəblərində təşkil olunan tədbirlərdə, dəyirmi masalarda narkomaniyanın bəşəriyyət üçün böyük faciə olduğunu özündə əks etdirən mövzular ətrafında geniş fikir mübadiləsi aparılır, orta məktəblərdə inşa yazı və rəsm müsabiqələri təşkil olunur, gənclərin bu təhlükəli cinayətlə bağlı fikir və mülahizələri öyrənilir. Ən əsası bu tədbirlər kütləvi informasiya vasitələrində işıqlandırılmaqla əhəmiyyətini daha da artırmış olur. “Narkomaniya və müasir gənclik”, “Narkomaniya cəmiyyətin qəddar düşmənidir”, “Narkomaniyaya qarşı hamılıqla mübarizə”, “Narkomaniya nədir?”, “Zərərli vərdişlərə yox deyirik”, “Narkomaniyaya qarşı mübarizə və sağlam həyat” devizi altında təşkil olunan tədbirlər maarifləndirmə işinin yüksək səviyyədə qurulmasına öz müsbət təsirini göstərir. Məktəblilər arasında bu mövzularda keçirilən inşa müsabiqələrində qaliblərin mükafatlandırılması da maarifləndirmə işinin öz müsbət təsirini göstərir.

Bu gün narkotiklərin qanunsuz dövriyyəsi dünya miqyasında geniş vüsət alaraq, insanlıq üçün ciddi təhdidə çevrilib. Narkomaniya cinayətkarlığın artmasına rəvac verir, ağır xəstəliklərə səbəb olur, mənəvi deqradasiyaya aparıb çıxarır. Buna baxmayaraq, gənc nəslin bəzi nümayəndələrinin narkotiklərin gətirdiyi fəlakətlər haqqında yetərli təsəvvürü və məlumatı yoxdur. Narkomanlığın yayılması cəmiyyətdə digər mənfi halların genişlənməsi üçün zəmin yaradır. Narkotik asılılığında olan şəxslər sosium üçün təhlükə mənbəyi kimi çıxış edirlər.

Təəssüf ki, narkomaniya respublikamızda da ciddi problem olaraq qalmaqdadır. Bəzi gənclər narkotik asılılığı girdabına yuvarlanır, bu da narkomaniya ilə bağlı cinayətlərin törədilməsinə səbəb olur. Narkotiklərlə bağlı cinayətlərin artım dinamikası problemin cəmiyyət üçün doğurduğu təhlükəni daha da artırır. Narkomanların say artımı milli genofond üçün ciddi təhdid əmələ gətirir.

Gənclər arasında zərərli vərdişlərin profilaktikası sahəsində maarifləndirmə tədbirləri xüsusi əhəmiyyət kəsb edir. Narkomaniyaya qarşı mübarizə məqsədilə təşviqat aksiyaları, mədəni-kütləvi tədbirlər, müsabiqələr, festivallar təşkil olunur.

2017-ci ildə bu sahədə bir sıra yeni addımlar atılıb. Gənclər və İdman Nazirliyi bu sahədə xarici ölkələrin təcrübəsini və beynəlxalq praktikanı yaxından öyrənir, əldə edilən məlumat və vərdişlərin həyata keçirilməsi təmin olunur. Bu sahədə qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa, xüsusilə gənclər təşkilatları ilə işbirliyinə böyük diqqət yetirilir.

Narkomanlığa qarşı mübarizə sahəsində aparılan işlər və bu bəlaya düçar olmamağın yolları barədə internet səhifələrində, xüsusilə sosial şəbəkələrdə təbliğat aparılması səmərəli və önəmli vasitəyə çevrilmişdir. Bu sahədə həm nazirlik, həm də gənclərin qeyri-hökumət təşkilatları tərəfindən görülən işlər mütəmadi olaraq sosial şəbəkələrdə təbliğ edilir.

***Arzu Qurbanzadə***

# Prezidentin yeni təyinatlarına paytaxt sakinlərinin BAXIŞI - SORĞU



**Prezident tərəfindən yeni təyinatlar həyata keçirilib. Bununla bağlı SİA olaraq paytaxt sakinləri arasında sorğu keçirdik. Bəs onlar bu yeni təyinatlara necə baxırlar? Həmin sorğunu sizə, təqdim edirik:**

<u>Paytaxt sakini Əli Yunisov:</u> “Tədbirlər yaxşı tədbirlərdir. Alqışlayıram. Ancaq bu yeni təyin olunmuş şəxslərin üzərində ictimai nəzarət olsa yaxşıdır. Bəzi icra hakimiyyətləri tərəfindən müharibə şəhidlərinə qarşı haqsızlıqlar edilir. Bunlar təkrarlanmasın. Prezidentin hər sərəncamını alqışlayırıq. Amma yerli strukturların Prezidentin sərəncamlarını necə yerinə yetirdiyini bilmək üçün gərək, burada bir ictimai nəzarət olsun. Düşünürəm ki, bu nəzarət yerinə yetirilsə, sərəncamların effekti daha müsbət olar”.



<u>Paytaxt sakini Məlahət Rzayeva:</u> “Mən heç bir müsbətə doğru bir addımın olacağına inanmıram. Düşünmürəm ki, burada nəsə yenilik olacaq. Yeni təyin olunmuş şəxslər bəlkə də, nəsə müsbət işlər görə bilər. Hər halda zaman göstərəcək. Ümid edək ki, yaxşıya doğru nəsə olacaq”.



<u>Paytaxt sakini Nəsir İskəndərov:</u> “Mən açıq danışacam. Burada nəsə bir müsbət hadisə baş verəcəyinə inanmıram. Çox güclü ictimai nəzarət olmadıqca da müsbət heç nə görmürəm. Verilən sərəncamların yerinə düzgün yetirilib-yetirilməməsi ilə bağlı dövlət nəzarəti olur. Ancaq bununla yanaşı ictimai nəzarətin də bu baxımdan müsbət olacağını düşünürəm”.



<u>Paytaxt sakini Elmin Alışov:</u> “Bəzi hallarda rüşvətxor məmurların ucbatından kadr islahatları aparılır. Düşünürəm ki, səbəblərdən biri də budur. Prezident İlham Əliyevin apardığı kadr islahatları mühüm xarakter daşıyır. Ümid edirəm ki, bundan sonra da kadr islahatları aparılacaq və ölkəmizdə cəmiyyətə lazım olan vəzifəli şəxslər öz işlərinin başlarında olacaq”



<u>Paytaxt sakini Kəmalə Nəsibova:</u> Ümumiyyətlə, düşünürəm ki, Prezidentin bu təyinatları, çox vacibdir və yerindədir. Yeni kadrlara ehtiyac var. Xüsusilə də, gənclərə üstünlük verilməli olduğunu düşünürəm. Çünki yaşlı nəsil rüşvət alışdığı üçün düşünürəm ki, elə də davam edəcək. Rüşvət məsələsini, işlərdə olan qanunsuzluğu aradan qaldırmaq üçün yeni nəfəs gənclərə ehtiyac var. Çünki yeni nəsil kəmiyyətə, məbləğə yox, keyfiyyətə önəm verir.



<u>Paytaxt sakini Sünbülə Camalzadə:</u> “Mən hesab edirəm ki, dəyişiklik, yenilik hər zaman öz müsbət effektiv təsirini göstərir. Bu baxımdan Prezidentin sərəncamları yerindədir. Təyinatlarda daha yeni şəxslərə, gənclərə yer verilməsi lazımdır. Düşünürəm ki, bu belə də olacaq. Daha yaxşı hadisələrin olacağına ümidliyəm.

<u>Paytaxt sakini Səməndər Quluzadə:</u> “Mən hər zaman olduğu kimi indi də cənab Prezidentin göstərişlərinin doğru və yerində olduğunu düşünürəm. Hesab edirəm ki, əvvəl olan hansısa naqisliklər yeni təyin olunan şəxslər tərəfindən bir də təkrarlanmayacaq. Bundan sonra olan işlərin yerində olacaq”.

***Turqay Musayev***

# İqlim fəlakətlərindən zərər çəkənlərin sayı açıqlandı



2021-ci ildə iqlim dəyişikliyinin yaratdığı fəlakətlər səbəbiylə dünyada 20 milyondan çox insan evlərini tərk etmək məcburiyyətində qalıb və zərər çəkib. SİA xəbər verir ki, bu sözləri təşkilatın baş katibi Antonio Quterres, BMT Təhlükəsizlik Şurasının iclasında söyləyib.

”Keçən il iqlimlə əlaqədar fəlakətlər nəticəsində 30 milyondan çox insan köçkün vəziyyətinə düşüb”, deyə Quterres bildirib. Onun sözlərinə görə, inkişaf etmiş ölkələr, iqlim dəyişikliyinə qarşı mübarizəni maliyyələşdirmək üçün 100 milyard dollar ayıracaqları barədə vədlərinə əməl etməlidirlər.

***İnam Hacıyev***

# Vüqar Rəhimzadə: Ulu öndər Heydər Əliyevin yeni neft strategiyası Azərbaycanın xoşbəxt gələcəyinin təminatçısıdır



Azərbaycanın iqtisadi tərəqqisinə, dünya iqtisadi sisteminə inteqrasiyasına yol açan, əbədi müstəqilliyimizi, xalqımızın yüksək rifahını təmin edən və dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkətinin iştirakı ilə tarixə “Əsrin müqaviləsi” kimi daxil olan sazişin imzalanmasından 27 il ötür. O vaxtdan bu günədək ulu öndər Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası uğurla icra edilir. Bu strategiyanın uğurla reallaşması fonunda Azərbaycanın enerji sektorunda mühüm hadisələr baş verir, neft gəlirlərinin qeyri-neft sektorunun inkişafına yönəldilməsi ölkəmizin hərtərəfli inkişafını təmin edir. Sabitliyin, normal iqtisadi mühitin mövcudluğu ölkəmizə investisiya axınını sürətləndirir. Bir sözlə, beynəlxalq arenada Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyi gündən-günə möhkəmlənir.

Əgər 1994-cü ildən indiyədək ölkəmizin neft-qaz sektorunda inkişafın xronologiyasına nəzər yetirsək, bunun yalnız uğurlar xronologiyası olduğunu görərik. Ümummilli Liderin adı ilə bağlı olan Azərbaycanın yeni neft strategiyasının uğurlu icrası qarşıya qoyulan hər bir hədəfə yüksək səviyyədə nail olmağa geniş imkanlar açır. 27 illik təcrübə göstərir ki, “Əsrin müqaviləsi” Azərbaycanın bu gününü və gələcəyini təmin etməyə qadir olan yüksək potensiala malik layihədir. Artıq bu nadir sazişin reallaşdırılmasının ikinci mərhələsi başlayıb. Söhbət təbii ki, 2017-ci il sentyabrın 14-də Bakıda imzalanmış Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş, “XXI əsrin kontraktı” adlandırılan “Yeni əsrin müqaviləsi”ndən gedir. Həmin sənədə uyğun olaraq “Əsrin müqaviləsi”nin müddəti 2050-ci ilə qədər uzadılıb. Bu, şübhəsiz, Azərbaycanın gələcəyinə, ölkəmizdə uğurla həyata keçirilən, müəllifi ulu öndər Heydər Əliyev olan sabitlik və tərəqqi siyasətinə inamın göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, sonrakı illərdə xarici şirkətlərlə “Əsrin müqaviləsi”nin davamı kimi imzalanan yeni neft və qaz sazişlərinin, Anlaşma memorandumlarının say tərkibinə diqqət yetirməklə iqtisadi müstəqilliyini təmin edən Azərbaycanın beynəlxalq münasibətlərdə artan rolunu və yerini açıq-aydın görmək olar. “Əsrin müqaviləsi” hazırda həm məzmununa, mahiyyətinə, həm də regionda və dünyada əməkdaşlığın inkişafına verdiyi yeni nəfəsə görə regional, eyni zamanda qlobal geosiyasi proseslərdə öz əhəmiyyətini qoruyub saxlayır. Məhz “Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycanın o vaxtadək regional çərçivədə başlanan əməkdaşlığının coğrafiyası genişlənərək beynəlxalq miqyas aldı.

YAP Xətai rayon təşkilatının sədri iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verilməsini müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin göstəricisi kimi diqqətə çatdıraraq deyib: “Ümummilli Lider yeni neft strategiyasını işləyib hazırlamaqla, dünya təcrübəsinə istinad edib səylərin, təcrübə mübadiləsinin birləşdirilməsi fonunda “Əsrin müqaviləsi”nin imzalanmasına nail olmaqla xalqımızın illərdir ürəyində yaşatdığı öz təbii sərvətlərinin əsl sahibinə çevrilməsi arzusunu gerçəkləşdirdi. Bu sazişin reallaşması sayəsində Azərbaycan regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrildi. Məhz bu uğurlarımıza söykənərək bu gün böyük inamla və uca səslə bəyan edirik ki, Azərbaycanın iştirakı olmadan bölgədə hansısa qlobal iqtisadi layihənin icrasından danışmaq qeyri-mümkündür”.

Ulu öndər Heydər Əliyevin dühasının, siyasi uzaqgörənliyinin və qətiyyətinin nəticəsi olan “Əsrin müqaviləsi”nin müstəqil Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olduğunu diqqətə çatdıran V.Rəhimzadə bildirib: “Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə neft siyasətinin uğurla həyata keçirilməsi enerji layihələrinin xronologiyasında da özünü qabarıq şəkildə göstərir. Belə ki, möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verildi. 2014-cü ildə - “Əsrin müqaviləsi”nin 20 illiyində Cənub Qaz Dəhlizinin təməli qoyuldu və 2018-ci ilin mayında bu unikal layihənin rəsmi açılışı oldu. 2018-ci ilin iyununda Cənub Qaz Dəhlizinin əsas seqmentləri olan TANAP, 2020-ci ilin dekabrında isə TAP istifadəyə verildi.

Göründüyü kimi, Azərbaycanın enerji sektorunda qazanılan uğurlar bu sahədə qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunduğunu təsdiqləyir. Bu uğurlarda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR), ölkəmizin çoxminli neftçilər ordusunun öz payı, rolu vardır. Ümummilli Liderin Fərmanı ilə “Əsrin müqaviləsi”nin imzalandığı tarixin - 20 sentyabrın Neftçilər Günü kimi təsis edilməsi özündə bütün məqamları ehtiva edir. Qəhrəman Azərbaycan neftçiləri bu bayramı hər il yüksək göstəricilərlə qeyd edirlər. Onu da xüsusi vurğulamaq gərəkdir ki, dövlətimizin başçısı İlham Əliyev SOCAR-ın qarşısında beynəlxalq transmilli şirkətlər cərgəsinə qoşulmağı mühüm vəzifə kimi qoymuşdur. Məhz bu tapşırığı əldə rəhbər tutan SOCAR bu gün ölkəmizin hüdudlarından kənarda həyata keçirdiyi uğurlu investisiya layihələri ilə beynəlxalq nüfuzunu gündən-günə möhkəmləndirməklə modern quruma çevrilib”.

“Atılan hər bir addımın əsasında Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması, sosial təminatın yüksəldilməsi, iqtisadi inkişafın dayanıqlı olması dayanır” söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, ulu öndər Heydər Əliyevin “Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur” fikrinin davamı olaraq dövlət başçısı İlham Əliyev “Neft kapitalını insan kapitalına çevirək” tezisini irəli sürdü, neft gəlirlərini qeyri-neft sektorunun inkişafına yönəltməklə əhalinin sosial müdafiəsinin gücləndirilməsinin prioritetliyini açıqladı. Heç də təsadüfi deyil ki, “Əsrin müqaviləsi” Azərbaycanın hər bir regionunun inkişafında təkanverici rol oynayıb. Məhz neft gəlirlərini ölkənin tərəqqisinə, xalqın, xüsusilə bölgələrdə yaşayan əhalinin maddi rifah halının daha da yüksəldilməsinə yönəltmək məqsədilə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları qəbul olunub. Onlardan üçü artıq uğurla reallaşdırılıb. Dövlət proqramları çərçivəsində regionlarda müasir infrastruktur formalaşdırılıb, yeni iş yerləri açılıb”.

Hazırda ölkəmizin həyatında yeni mərhələnin başlandığını diqqətə çatdıran Vüqar Rəhimzadə qeyd edib ki, erməni işğalçılarına qarşı 44 günlük Vətən müharibəsində tarixi Zəfərimizi şərtləndirən amillər sırasında ulu öndər Heydər Əliyevin yeni neft strategiyası müstəsna rol oynadı. “Fərəhli haldır ki, bu gün qalib ölkədə enerji layihələrinin uğurlu icrası nəticəsində dövlət büdcəsinə milyardlarla dollar vəsait daxil olur. Ulu Öndərin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondunda toplanan, Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin rifahına xidmət edən bu vəsaitlər hesabına ölkənin hərtərəfli inkişafını şərtləndirən sosial-iqtisadi layihələr uğurla həyata keçirilir. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işlərindən bəhs edərkən son 27 ildə görülən genişmiqyaslı işlərə, xüsusilə xalqımızı bütün dünyada şöhrətləndirən İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizə əsaslanaraq sonsuz qürur hissi və fəxrlə deyirik ki, “Əsrin müqaviləsi” Azərbaycanın nəhəng iqtisadi və maliyyə imkanlarının təqdimatıdır. Bir sözlə, “Əsrin müqaviləsi” bu gün Azərbaycana əldə etdiyi uğurları daha da inkişaf etdirmək imkanı qazandırır və gələcəkdə də belə olacaqdır”, - deyə YAP Xətai rayon təşkilatının sədri əlavə edib.

# 27 Sentyabr - ZƏFƏRƏ aparan yol!

*Prezident İlham Əliyev: "Biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq!"*

**Azərbaycan Prezidenti, Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən, zəfər yürüşünə başlaması tariximizə yazılan səhifədir.**



Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərək, bu gün səhər Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutduğunu bildirmişdir: "Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır". Bu, belə də oldu. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın silahlı qüv-




vələrini məhv edərək tariximizə yeni bir gün yazdı və şəhidlərimizin qisası alındı. Əlbəttə ki, bu 44 gün qısa bir zaman olsa da, Azərbaycanın şanlı tarixini yazdı. XXI əsrin müharibəsini aparan Azərbaycan hərbi gücü, qüdrəti ilə dünyaya səs saldı. 44 günlük müharibə zamanında Azərbaycan uğurlu əməliyyat keçirərək 30 ilə yaxın zamanda işğal altında qalmış torpaqlarını erməni təcavüzkarlarından azad etdi. 44 günün hər bir dəqiqəsini, saatını Qələbə sorağı ilə böyük həyecan, səbirsizliklə gözləyirdik. 44 gündə hər dəfə yeni xəbərlər eşidir və ordumuzun düşmənə endirdiyi zərbələr qısa bir tarixdə bizə qələbə sevincini qazandırdı.

## "AZƏRBAYCANLA HƏDƏ-QORXU DİLİ İLƏ DANIŞAN BUNDAN PEŞMAN OLACAQDIR"

"Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır", - deyə Azərbaycan Prezidenti bildirmişdir. Ötən ilin iyulun 12-si günorta saatlarından başlayaraq, Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərimizi artilleriya qurğularından atəşə tutması növbəti təxribat idi. Bu, Ermənistan tərəfinin Azərbaycana qarşı artilleriya hücumunun əvvəlcədən planlaşdırılmasını bir daha göstərmiş oldu. Düşmən hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu şəhid oldu və Ermənistanın artilleriya atəşləri nəticəsində Ağdam kəndinin 76 yaşlı sakini həlak oldu. Həmin günlərdə Ermənistan Silahlı Qüvvələri Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Əlibəyli və Hacallı kəndlərini ağır artilleriya silahlarından atəşə tutmağa başlayıblar. "İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır", - deyən Azərbaycan Prezidenti qeyd edib ki, əfsuslar ki, bu, onlar üçün dərs olmadı: "Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır. Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı".

## "BÜTÜN BEYNƏLXALQ TƏŞKİLATLAR AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ TANIYIR"

Xatırlatmaq yerinə düşərdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. "Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır", - deyən Azərbaycan Prezidenti bildirib ki, beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir: "BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır".

## "BİZİM MÖVQEYİMİZ BEYNƏLXALQ HÜQUQA VƏ ƏDALƏTƏ ƏSASLANIR"

Dövlət başçısı onu da bildirib ki, BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir: "Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları,



# 27 Sentyabr - ZƏFƏRƏ aparan yol!

*Prezident İlham Əliyev: "Biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq!"*

Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq". Bütün dünya gördü ki, Azərbaycan ordusu öz torpaqlarında ədalətli müharibə aparır. 44 günün hər günü dünyanın diqqəti ölkəmizdə oldu. "Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!", - deyən Prezident "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətinin 90 faizinin Ermənistan vətəndaşlarından ibarət olduğunu bildirmişdi: "Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır". Bu fikirləri bütün dünya eşitdi və haqq Azərbaycanın yanında oldu: "Qarabağ Azərbaycandır və nida işarəsi".

Əlbəttə ki, Azərbaycan heç bir təxribata yox, öz torpaqlarını işğaldan azad olunması istiqamətində ayağa qalxdı. Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Əlbəttə ki, ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Həmin döyüşlərdə ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin gücü öz sözünü demiş oldu. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunu bir daha göstərdi.Əlbəttə ki, Tovuz döyüşləri böyük qələbənin başlanğıcı oldu. Yaşından, tutduğu vəzifəsindən asılı olmayaraq, hər bir azərbaycanlı Vətən keşiyində dayanan, düşmənlə vuruşan əsgərə mənəvi, fiziki cəhətdən dayaq, arxa, ona silahdaş oldu. Yaranan hər bir çətin şəraiti gözə alaraq, vətənimiz Azərbaycanın ərazi bütövlüyünü canları və qanları bahasına olsa da belə qorumağa hazır olduqlarını göstərdilər.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Azərbaycan qalib ölkədir. "Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq", - deyə Prezident bildirib. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq!, - deyən Prezident İlham Əliyev onu da bildirib ki, "Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!". Bəli, bu gün Azərbaycanın güclü ordusu, yenilməz ordusu var. O ordu ki, döyüş meydanınıda öz gücünü göstərə bildi. "Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək", - deyən dövlət başçısı bunun asan məsələ olmadığını qeyd edib.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu müharibədə sözünü dedi. Xalq-iqtidar birliyi qələbəmizi şərtləndirən ən əsas amillərdən biri oldu. Qarabağ Azərbaycandır!!!

**Nəzakət ƏLƏDDİNQIZI**







**"ERMƏNİSTAN İSƏ MƏĞLUB EDİLMİŞ ÖLKƏDİR, BİZİM QARŞIMIZDA DİZ ÇÖKMÜŞ ÖLKƏDİR, BAŞINI, BOYNUNU BÜKMÜŞ ÖLKƏDİR VƏ HƏMİŞƏ BELƏ OLACAQ"**



# Arazın suyu kimi Bakının da səbri daşa bilər!



**Söz yox ki, hər bir ölkə öz ərazilərində istədiyi qədər hərbi təlimlər keçirə bilər və bu məsələdə kimsə-kimsəyə irad da tuta bilməz. Lakin son günlər İranın müsəlman (!) qonşusu Azərbaycana qarşı aqressiv və təhdid ritorikaları yenidən bir sıra məsələlərin üzə çıxmasına, əslində isə, reallıqları dilə gətirməyə kifayət qədər zəmin yaradır. Ölkənin SEPA hərbi birləşmələrinin nədənsə 44 günlük müharibə nəticəsində işğaldan azad edilmiş ərazilərə yaxın bölgələrdə irimiqyaslı hərbi təlimlərə başlaması da bu amili aktuallaşdırmaqdadır. Belə olan halda isə Azərbaycanın ictimai-siyasi rəyi əlbəttə ki, İran tərəfini narahat edən bir çox sualları məhz Tehrana ünvanlamaq haqqına malikdir. Çünki Tehranın bu kimi addımları açıq-aşkar xoşməramlı hərbi təlimlər məqsədini güdmədiyini də ortaya çıxarmaqdadır.**

*Azərbaycanın ictimai-siyasi rəyi əlbəttə ki, İran tərəfini narahat edən bir çox sualları məhz Tehrana ünvanlamaq haqqına malikdir*

Təkcə bir danılmaz və beton kimi möhkəm FAKTI qeyd etsək, deyilənlərin həqiqətə nə qədər yaxın olduğunu əminliklə vurğulaya bilərik. Belə ki, İran onunla həmsərhəd olan və uzun illər Ermənistan tərəfindən işğala məruz qoyulan Azərbaycan torpaqlarının yaxınlığında bir dəfə də olsun hərbi təlimlər keçirməyib, bir dəfə də!





### Tehran öz sərhədlərində Azərbaycanın qanuni hakimiyyətini bərpa etməsindən daha çox çəkinir, nəinki işğalçı Ermənistanın mövcudluğundan...

Deməli ki, baş verənlərdən bu cür də nəticə çıxarmaq olar ki, özünü İran İslam Respublikası adlandıran Tehranın ali hərbi-siyasi-dini isteblişmenti 26 il ermənilər tərəfindən işğal altında saxlanılan müsəlman (!) Azərbaycan torpaqlarının belə vəziyyətdə qalmasında maraqlı idı. Yeri gəlmişkən, İran bugünə qədər Ermənistanla sərhəddə də heç vaxt hərbi təlimlər keçirməyib (?!). Həmçinin belə çıxır ki, Tehran öz sərhədlərində Azərbaycanın qanuni hakimiyyətini bərpa etməsindən daha çox çəkinir, nəinki işğalçı Ermənistanın mövcudluğundan...

Ümumiyyətlə götürdükdə isə, son zamanlar İranın Azərbaycanla münasibətlərində kəskinləşdirmə oyununu oynaması daha çox qabarıq görünməkdədir. Baxın, yalnız cərəyan edən son hadisələr fonunda deyil, bütövlükdə son illərdə İranın media qurumları anti-Azərbaycan xarakterli ritorikalarla çıxış edirlər, üstəlik ara-sıra təhqirlər də ünvanlayırlar. Yəni bizim ölkəmiz-Azərbaycan onların media məkanlarında birmənalı olaraq neqativ və mənfi tonda təqdim edilməkdədir

Yalnız maraqlı cəhətlərdən biri də budur ki, İranın media məkanı ilə yanaşı, dini xadimləri də sanki Azərbaycanı təhqir etmək, aşağılamaq, hədəfləmək üstündə yarış keçirirlər.

### İranın dini liderləri sırasına daxil olan adamların baxışları digər xristian və göründüyü kimi, Azərbaycana qarşı səmimi olmayan siyasi dairələrə malik ölkələrin fikirləri ilə üst-üstə düşür

Bugünlərdə Ərdəbilin baş mollası Seyid Həsən Amilinin yenidən Bakıya qarşı həddini aşması, "şirin quyruğunu tapdalamamaq" kimi sərsəm, hədyan fikirlər səsləndirməsi bizləri hiddətləndirməyə bilməzdi. Xatırlatmaq yerinə düşərdi ki, bu şəxs ilk dəfə deyil Azərbaycana qarşı ağzına və ağlına gələni ifadə edir. Bəli, o açıq-aşkar xristian və işğalçı Ermənistanın maraqlarından çıxış edir. Özü də nə qədər ilginc görünsə də, bu gün İranın dini liderləri sırasına daxil olan adamların baxışları digər xristian və göründüyü kimi, Azərbaycana qarşı səmimi olmayan siyasi dairələrə malik ölkələrin fikirləri ilə üst-üstə düşür. Misal üçün, ABŞ-ın, Fransanın və s...

Lakin məsələ ondadır ki, müstəqil, inkişaf edən, güclənən və hərbi uğurları ilə dünyaya səs salan Azərbaycan İranın göz qarasına ağ gətirir və bu proses də indinin deyil, uzun illərin - ötən əsrin 90-cı illərindən başlayan prosesidir. Təkcə dünyanın aparıcı neft şirkətləri və korporasiyaları ilə "Əsrin müqaviləsi" sazişi bağlananda aydın oldu ki, Azərbaycan həm Qərblə, həm də Şərqlə açıq siyasi əməkdaşlıq yolunu tutmaq qərarını verib. İranın ali dini və siyasi rəhbərliyi biləndə ki, Bakı heç də onlardan asılı vəziyyətdə qalmayacaq qonşuluq prinsiplərindən kənar dayanacaq, onların istədikləri siyasətə doğru istiqamət almayacaq, bax ondan başlayaraq Tehranın mövcud yanaşma tərsi yaranmağa başladı.

### Axı bundan sonra İranın, hətta ali siyasi dairələrində oturan narkoticarətçilərinin qızıl teştlərinə kirli pullar axmayacaq, işğal olunmuş ərazilərimizdən göndərilən narkotiklər qeyri-qanuni yollarla üçüncü ölkələrə ötürülməyəcək

Bu gün Azərbaycanın Vətən müharibəsində zəfər qazanması isə İranın az qala öz qəzəbində, kin-küdurətində boğulmasına səbəb oldu. Bunun da səbəbləri var. Məsələ həm də ondadır ki, İran 26 il işğal olunmuş ərazilərimizdən narkotrafik kimi istifadə edirdi. Azərbaycan dövlət sərhədlərini bərpa etməsi ilə bu trafiki əbədiyən bağladı. Axı bundan sonra İranın hətta ali siyasi dairələrində oturan narkoticarətçilərinin qızıl teştlərinə kirli pullar axmayacaq, işğal olunmuş ərazilərimizdən göndərilən narkotiklər qeyri-qanuni yollarla üçüncü ölkələrə ötürülməyəcək. Çünki o torpaqlar Azərbaycanın nəzarətindədir. Reallığa qalanda bu gün istər Rusiya, istərsə də Avropa ölkələri daim Azərbaycana minnətdar olmalıdırlar ki, onlara sızdırılan ağ ölümün qarşısını alıb.

Bundan başqa, Gorus-Qafan yolunun bağlanması və Azərbaycan tərəfinin iranlı sürücülərə haqlı olaraq vergi ödəmək tələbini irəli sürməsi də Tehranı qıcıqlandırır. Halbuki, bu tələblər də qanunidir və heç bir narahatlığa da əsas verə bilməz. Yəni bu adi bir praktikadır və azərbaycanlı yük maşını sürücüləri də İranın ərazisindən keçərkən vergi və s. tələb olunan ödəmələri həyata keçirir.

### Məsələ nədir, niyə acığından qıvrılıb-açılır?

Sonda isə daha bir xatırlatmanı da etmək yerinə düşərdi - bu gün İran Azərbaycanın Türkiyə, Pakistan kimi müsəlman ölkələri ilə hərbi əməkdaşlıqlar çərçivəsində hərbi təlimlər keçirir və Tehranın bu məsələdə nəyə görə var-gəl etməsi də elə onun tərəfindən aydınlaşdırılmalıdır. Hər halda, əgər İranın mövqeyi xristian ölkələri ilə üst-üstə düşürsə, onun müsəlman ölkələrinin birgə əməkdaşlığı məsələsindəki hay-həşiri suallar doğurur, məsələ nədir, niyə acığından qıvrılıb-açılır?

Əgər mövzu İsraildirsə, bu məsələdə də Tehranın Bakıya hər hansı mənfi tondlarla "əzələ nümayişi" göstərməsinə ehtiyac yoxdur. Bakı İsraillə əməkdaşlıq edirsə, bu onun müstəqil qərarı və siyasətidir. Çünki Tehrandan fərqli olaraq İsrail 44 günlük Qarabağ müharibəsində haqq olan tərəfdə dayandı, Azərbaycanı dəstəklədi. İslamda isə Allahın adlarından biri də Həqqdir - yəni haqq! İran bu haqqı tapdalayaraq haqsızın yanında dayanıbsa, 30 ilə yaxın dövr ərzində Ermənistanın ciyərlərinə nəfəs borusu rolunu oynayıbsa, ümumiyyətlə, İrəvanın işğalçılıq siyasətinin uzadılmasına istər dolayısı ilə, istərsə də birbaşa dəstək göstəribsə, bu zaman sussun, sussun və Bakının səbrini daşırmasın, Arazın suyu kimi Bakının da səbri daşa bilər!

***Rövşən RƏSULOV***

## "Böyük qardaş"ı itirmək ehtimalı...

**...Deməli, səkkizinci çağırış Rusiya Dövlət Dumasının ilk iclası gələn həftə, yəni sentyabrın 29-da baş tuta bilər. Deyilənə görə, ilk iclasın çox hissəsi təşkilati xarakter daşıyacaq, yəni ilk olaraq millət vəkilləri Dövlət Dumasının spikeri də daxil olmaqla palatanın yeni rəhbərliyini seçəcək və komitələrə sədrliyi fraksiyalar arasında bölüşdürəcək və s. və ilaxır. Təbii ki, Putinin yeni millət vəkillərinə təbrik və ayrılıq sözləri söyləyəcəyi də istisna edilmir.**



Bildirək ki, Dövlət Dumasının səkkizinci çağırışının səlahiyyət müddəti 2026 -cı ilin sentyabrında başa çatsa da, yeni seçilmiş deputatların "yellənmək" üçün vaxtı elə də çox olmayacaq. Ona görə ki, bir neçə gün əvvəl hökumət 2022-2024-cü illər üçün federal büdcə layihəsini hökumətdən alıb.

...Maraqlıdır ki, hələ yeni duma fəaliyyətə başlamayıb, amma onunla bağlı bədbin fikirlər səsləndirilməkdədir. Özü də elə rusların özləri tərəfindən...

Ümumiyyətlə, bəzi rus saytları yeni Dövlət Dumasından yaxşı heç nə gözləmədiklərini artıq açıq şəkildə etiraf etməyə başlayıblar.

Xatırladaq ki, 2007 -ci ildən bəri ilk dəfə olaraq Dövlət Dumasında əvvəlkindən fərqli olaraq, bu dəfə beş fraksiya oturacaq. Yəni bir fraksiya artıb. Təbii ki, bütün bunlara baxmayaraq, iqtidardakı partiya əvvəlki kimi qalır. Amma, yenə də əvvəldəkindən fəqli olaraq, bu dəfə bir neçə yenilənmiş siması ilə...

Deyim ki, Dumaya yeni gələnlərdən biri, özünü Anatoli Vasserman kimi təqdim edən deputat artıq ilk təklifini bəyan edib: Rusiya məktəblərində təhsili on bir ildən səkkiz ilə endirmək və məktəbli uşaqlara silahdan istifadə etməyin bütün xırdalıqlarını öyrətmək...

...Nə bilim, bəlkə də məhz bunu əsas tutan bəzi rus saytları ölkədəki son duma seçkilərini ... rus tarixində elə sonuncu seçkisi kimi təqdim etməyə başlayıblar.

...amma, türklər demiş "...yel ağzınızdan alsın" , deyirlər "qardaş" itkisi ağır dərd olur...özü də bu "böyük qardaş" ola...

***Ağasəf Babayev***

# Zəfərimizin birinci ili və Azərbaycana hücumların yeni dalğası...

***Azərbaycan xalqı və bütün dünya azərbaycanlıları 44 günlük Vətən müharibəsində qazanılmış parlaq Zəfərin birinci ildönümünü qeyd etməyə hazırlaşır. Bir qəhrəmanlıq dastanı olan Vətən müharibəsinin hər bir günü şanlı tarix, qürur anıdır. Sentyabrın 27-dən başlayaraq Azərbaycan xalqı həm şəhidlərini anacaq, həm qazilərı, hərbçiləri ilə fəxr edəcək, həm də bir il öncəki günləri yenidən xatırlayacaq. Bir il öncə Müzəffər Ali Baş Komandanın tvitlətini səbrsizliklə gözləyən insanlarımız həmin anları bir daha yaşayacaq, həyəcanlanacaq, qürurlanacaq...***

Amma çox təəssüflər olsun ki, anti-Azərbaycan dairələri Vətən Müharibəsində tarixi qələbənin birinci ildönümü ərəfəsində Azərbaycanın dövlət siyasəti, ölkədə mövcud durum və hakimiyyətdə təmsil olunmuş müxtəlif yüksək vəzifəli şəxslərə qarşı ünvanlı qarayaxma kampaniyasına başlamaq niyyətindədirlər. Səbəb də ondan ibarətdir ki, qələbə və zəfər Azərbaycan xalqının, dövlətinin yüksəlişi, Ermənistan və havadarlarının qürubudur. Ona görə də, həm xaricdən, həm də daxildən "beşinci kolon" hücumlara başlamaqla Zəfərə ləkə salmağa, xalqın qələbəsini əlindən almağa çalışacaq.

Təcrübə onu göstərir ki, Qərbin müəyyən dairələrinin və onların təsiri altında olan media və QHT-lərin, ekspertlərin bu tipli hücumları əvvəlki illərdə də müşahidə olunub. Hər dəfə Azərbaycanla bağlı mühüm məsələlər gündəlikdə duranda və ya Azərbaycanda beynəlxalq ictimaiyyətin diqqətini cəlb edəcək tədbirlər keçiriləndə bu tipli hücumlar və qarayaxma kampaniyaları təşkil olunur. "Eurovision-2012"ni, I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını, "Formula-1", beynəlxalq futbol yarışlarını, mühüm enerji və iqtisadi layihələri xatırlasanız kifayət edər...



*Ramil Vəlibəyov, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri*

Bu dəfə 44 günlük Vətən müharibəsindəki Zəfərimizin hədəf seçilməsi də təsadüfi deyil. Qərb dairələri bununla beynəlxalq ictimaiyyətin diqqətini keçirilən tədbirlərdən yayındırmaq, əsassız və qərəzli şəkildə Azərbaycanı hədəfə gətirmək, Ermənistan-Azərbaycan münaqişəsinin həllində Azərbaycana əlavə problemlər yaratmaq məqsədi güdürlər. Azərbaycanın tarixi Qələbəsindən sonra həmin dairələr ölkəmizdə müharibə dövründə daha da möhkəmlənmiş, sarsılmaz hal almış milli birlikdən bərk narahatdırlar. Buna görə də təşkil olunan yeni kampaniyanın əsas məqsədi milli birliyi, xalqın öz liderinə, hakimiyyətə olan inamını və etibarını sarsıtmaqdır. Fikir verin, Fransa, Niderland, Lüksemburq kimi ölkələr Azərbaycan əleyhinə qərarlar verir, bunun ardınca ABŞ-dan Sevinc Osmanqızı, Fransadan Qənimət Zahid, eləcə də İsa Sadıqov, Fəhmin Hacıyev, Arif Yunus, Leyla Yunus, qondarma professor Cəmil Həsənli, Azərbaycanın daxilindən Əli Kərimli, Arif Hacılı, Əli Əliyev, Tofiq Yaqublu kimilər xalqın zəfərinə kölgə salmaq, qələbənin əhəmiyyətini azaltmaq üçün həmin qərarların icrasını həyata keçirirlər.

Müəllifi müzəffər Ali Baş Komandan İlham Əliyev olan və dünya siyasəti gündəliyinə, beynəlxalq medianın leksikonuna Qarabağ Azərbaycandır, Şərqi Zəngəzur, Zəngəzur dəhlizi kimi ifadələrin daxil olması da "beşinci kolon"u, Qərb dairələri ciddi narahat edir. Məhz bu səbəbdəndir ki, Qərb dairələri Azərbaycanın müharibədə qələbəsini həzm edə bilmirlər və sülh prosesinə zərbə vurmağa çalışırlar. Almaniya və ABŞ mediasında son zamanlar təşkil olunan ünvanlı qarayaxma kampaniyalarının əsas məqsədi də budur. Həmin dairələr qondarma problemləri ortaya atır, onun beynəlxalq miqyasda müzakirəsini təşkil etməyə, mövzunu Azərbaycanın informasiya məkanına keçirməyə çalışırlar. Məsələn, ABŞ-ın Ermənistandakı səfiri Linn Treysinin ardıcıl olaraq "Dağlıq Qarabağ münaqişəsi"nin hələ həll olunmadığını, bu istiqamətdə səylər göstərilməsinin zəruriliyini bildirməsi, status məsələsini gündəmə gətirməsi, İranın sərhədlərimizdə hərbi təlimlərə başlaması, uçuşlar həyata keçirməsi, gizli yollarla Ermənistana və Xankəndinə yüklər daşıması, ayətullah Seyid Həsən Amili kimilərin Azərbaycanı təhdid etməsi, Azərbaycan daxilində etnik separatizm mövzularının qabardılması, qazilər, şəhid ailələri, sosial məsələlər ilə bağlı qondarma problemlərin gündəm edilməsi, eyni zamanda ABŞ-ın Azərbaycandakı səfirliyinin məişət zorakılığı, seksual azlıqların hüquqları kimi mövzuları diqqətə gətirməsi, Azərbaycanda qondarma problemlər icad etməklə xalqımızın, xüsusilə gənclərin mənəvi deqradasiyası üçün səylərini gücləndirməsi, Azərbaycanın İstanbul konvensiyasına qoşulmasına nail olması ilə ölkəmizdə seksual azlıqların hüquqlarını prioritet səviyyəyə çatdırmağa, uşaqları seksual həyata cəlb etməyə, eynicinslilərin nigahını rəsmiləşdirməyə və digər bu kimi xalqımızın milli-mənəvi dəyərlərinə zidd olan meylləri əsrlərlə formalaşmış həyat tərzimizə hakim kəsməyə, deyilən istiqamətlərdə USAİD-in, ABŞ səfirliyinin layihələr həyata keçirməyə çalışması məhz haqqında danışılan ümumi təxribat planlarının tərkib hissəsidir. Ona görə də, Azərbaycan ictimaiyyəti, mediası belə məsələlərdə həssas olmalı, bu tipli kampaniyaları təşkil edənlərə və daxildə ondan yararlanmağa çalışanlara meydan verməməli və öz qəti sözünü deməlidir. Azərbaycan ictimaiyyəti təxribatçı subyektlərin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə zidd olan məsələləri gündəmə gətirməsinə ciddi etirazını bildirməlidir. Bu prosesdə yubanma, gecikmə yalnız xalqımıza, dövlətimizə zərər gətirə bilər.



Ona görə də, artıq şeytanı daşlamağın zamanıdır. Həm içimizdəki, həm də çöldəki...

# Top Paşinyandadır...



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

**Nikol Paşinyan Ermənistanla Türkiyə arasında diplomatik münasibətlərin qurulması məsələsində danışıqların yenidən başlaması təklifini irəli sürüb. Artıq o özünəinamlı şəkildə ölkəsinin Türkiyə ilə münasibətlər qurmağa hazır olduğunu iddia etsə də, digər tərəfdən də iddia edir ki, ona bu işdə millətçilərin təzyiqləri mane olur, hətta Azərbaycanla sülh sazişinin imzalanması, hər iki tərəfin qarşılıqlı olaraq sovetlər dönəminin sərhədləri çərçivəsində ərazilərini tanıması prosesində də xarici ölkələrdəki diasporaların böyük və ardıcıl basqıları mövcuddur.**

Lakin zamanında Şuşada rəqs edərək, "Qarabağ Ermənistandır və nöqtə" kimi bəyanat səsləndirən, 44 günlük müharibədən sonra isə özünü "sülh göyərçini" kimi göstərən Nikolun həmin sözlərinə inanmaq olarmı? O, istər Türkiyə, istərsə də Azərbaycanla münasibətlərin normallaşdırılmasında nə qədər səmimi görünə bilər? Açığı bu iddialar, bəyanatlar heç də inandırıcı görünmür. Fəqət, işıq ucu da saxlamaq lazımdır, "olmaz elə, olar belə" nöqteyi-nəzərindən...

O cümlədən, Nikol Paşinyan da bəzi suallara cavab verməlidir:

*** Tutaq ki, ona müəyyən erməni dairələrindən basqılar var və o, bu basqıların qarşısını necə alacaq?**

*** Yaxud, Nikol Paşinyan Ermənistanın konstitusiyasında qonşu ölkələrin torpaqlarına olan açıq-aşkar iddia bəndlərinin referendum yolu ilə dəyişdirilməsinə hazırdırmı?**

*** Nikol Paşinyan Ermənistanın dövlət gerbindəki "Ararat" adlandırılan, əslində, Türkiyənin ərazisində ucalan qədim türk dağı - Ağrının şəklini aradan qaldırmağa cürət edəcəkmi?**

*** Və ya Ermənistanın baş naziri bütövlükdə "Qərbi Ermənistan" adlandırılan ərazi iddialarından əl çəkəcəkmi?**

*** Ermənistan qondarma "erməni soyqırımı" iddialarının da "kitabını" bağlamağa hazırdırmı?**

*** İqtisadi cəhətdən Ermənistanın özünə də hava-su kimi lazım olan Zəngəzur dəhlizinin, ümumilikdə nəqliyyat-kommunikasiya və rabitə sistemlərinin işə salınması məsələsində "nazetmə" prosesinə son qoyulacaqmı?**

Əgər bütün bu kimi məsələlər və digər tələblər yoluna qoyulacaqsa, çox yəqin ki, həm Türkiyə ilə əlaqələrin qurulması, həm də Azərbaycanla sülh müqaviləsinin bağlanması prosesinə başlanıla bilər.

Yeri gəlmişkən, Nikol Paşinyan onu da unutmamalıdır ki, Azərbaycan və Türkiyə birgə Şuşa bəyannaməsi imzalayıblar və bu da müttəfiqlik partnyorluğunun bariz nümunəsidir. Ona görə də Ermənistanın həm Azərbaycanla, həm də Türkiyə ilə münasibətlərini normallaşdırmasına ehtiyacı var. O cümlədən, Şuşa bəyannaməsində beynəlxalq cəhətdən sərhədlərin tanınması ifadəsi dörd dəfə xatırlanıb. Çox yəqin ki, Ermənistanın baş naziri bu mühüm amili də unutmayıb və fərqindədir. Əslində, top Nikol Paşinyandadır və qalır onun doğru qərar qəbul edib, düzgün və etibarlı pas ötürməsinə....

***Rövşən RƏSULOV***

# "ATƏT-in Minsk Qrupunun zərərdən başqa heç bir xeyirləri yoxdur"

**"ATƏT-in Minsk Qrupu həmsədrlərinin yaranması ancaq münaqişənin həllinə yox status-kvonun saxlanılması ilə bağlı idi. Yəni onlar ermənilərin xeyrinə çalışırdılar. Vaxt, zaman da onu göstərdi ki, ATƏT bu münaqişənin həllini uzatmaqla məşğul olur. Azərbaycan dövləti isə artıq ATƏT-in Minsk Qrupuna ümidini bağlamadı və özü öz gücü ilə torpaqlarını işğaldan azad etdi". Bunu SİA-ya açıqlamasında politoloq, Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı deyib.**

Onun sözlərinə görə, Prezident İlham Əliyev rəsmi qaydada bildirdi ki, artıq münaqişə yoxdur: "Dağlıq Qarabağ yoxdur, status məsələsi yoxdur və ATƏT-in Minsk Qrupuna da heç bir ehtiyac yoxdur. Bir sözlə, Azərbaycan dövləti bu mövqenin də üzərində dayanmalıdırlar. Demək olar ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri olan ABŞ, Rusiya və Fransa ciddi cəhdlərlə çalışırlar ki, bu qurumun fəaliyyətini bərpa etsinlər. Burada Ermənistanın yeganə ümid yeri qalıb ki, danışıqlar başlasın və mənasız vaxt uzansın və Minsk Qrupunun vasitəsi ilə bunlarda nəyəsə nail olmağa çalışsınlar.




Çünki həmişə ATƏT-in Minsk Qrupu onlara işləyib. Ermənilər maraqlıdırlar ki, danışıqlar o səviyyədə bərpa olunsun, amma yenə deyirəm danışıqların predmeti yoxdur. Ümumiyyətlə, bərpa etməyə ehtiyac yoxdur. Çünki ATƏT-in Minsk Qrupunun zərərdən başqa heç bir xeyirləri yoxdur. Təəssüflər olsun ki, BMT Baş Assambleyasının 76-cı sessiyasında Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin görüşü planlaşdırılır. Bu görüşdən heç nə gözləmirəm. Düşünürəm ki, Azərbaycan tərəfi orda qəti şəkildə mövqeyini ortaya qoymalıdır, yəni həm Ermənistanın qarşısında, həm də həmsədrlərin qarşısında ki, bu ərazilər bizim ərazimizdir".

***Gülyana***



# Paşinyanın “vergi islahatları”: miqrasiya prosesinin sürətlənməsi

## BMT Fondu acı nəticələri indidən proqnozlaşdırıb

Ermənistanın hazırkı hakimiyyətinin ziddiyyətli və uzaqgörən olmayan siyasəti, xüsusən də ölkədəki mənzil problemlərinin həlli və demoqrafik vəziyyətin yaxşılaşdırılması üçün hazırlanan layihələrin reallaşdırıla bilinməməsi növbəti narazılıqlara səbəb olmaqdadır. Baş nazir Paşinyanın vergi islahatları fonunda 2050-ci ilə qədər əhalinin sayının beş milyona çatdıracağı ətrafındakı iddiaları isə artıq absurd olaraq qəbul olunur. Ölkədən kütləvi miqrasiya dalğası barədə düşünərsək, əslində, 2050-ci ildə nəinki 5 milyon, heç bir neçə yüz min erməninin də qalacağını düşünmək olmaz. Hətta ölkənin xəritədə qalması ehtimalı da qeyri-mümkün görünür.

**Ermənistan vətəndaşları nəinki iri sahəli, eləcə də kiçik sahəli yaşayış yerlərinə, mənzillərə sahib ola bilmirlər, mənzilləri özəlləşdirmək və ya başqa tikililəri qanunilәşdirmək istəmirlər**

Ötən ildən bəri Ermənistan hökuməti dəfələrlə və müxtəlif vaxtlarda ölkənin sosial-iqtisadi dirçəlişi üçün fantastik, daha dəqiq desək, xəyalpərəstliyə söykənən planlar səsləndirsə də, sadə xalq planların realizəsinin şahidi olmur. Əksinə, get-gedə demoqrafik vəziyyət də pisləşməyə doğru inkişaf edir. Beləliklə, Nikol Paşinyanın utopik planının maliyyə aspektləri üzərində var-gəlləri də mənasızlığı ilə seçilməkdədir. Digər tərəfdən, Ermənistanın “müstəqilliyinin” otuz illik təcrübəsinin göstərdiyi kimi - respublikanın üç onillik boyunca sənaye, aqrar, texnoloji, intellektual və digər potensialı cari xərcləri ödəmək üçün kifayət etmir və o cümlədən, xaricdəki diasporanın da maliyyə donorluğuna rəğmən,ölkə tamhüquqlu siyasi və iqtisadi potensiala malik olan dövlət kimi özünü təsdiq edə bilmir.

Bu uyğunsuzluqlar isə demək olar ki, hər yerdə və bütün sahələrdə - həll olunmayan mənzil problemlərində, bərbad vəziyyətdə olan mənzil fondunda və ən əsası, Ermənistan hökumətinin inşaat sektorunu zəiflədən vergi islahatlarında nəzərə çarpır. Nəticədə Ermənistan vətəndaşları nəinki iri sahəli, eləcə də kiçik sahəli yaşayış yerlərinə, mənzillərə sahib ola bilmirlər, mənzilləri özəlləşdirmək və ya başqa tikililəri qanunilәşdirmək istəmirlər. Belə ki, Paşinyanın mənzillərlə bağlı təqdim etdiyi vergi islahatları və s. “yenilikçi” qərarları buna ümumiyyətlə imkan vermir. Bu fakt isə tikinti şirkətlərinin də işlərinə mənfi təsirlərini göstərir, onların fəaliyyətlərinin dayanmasına səbəb olur.

**Ermənistanda daşınmaz əmlaklarla bağlı müqavilələr 15% azalıb, paytaxt İrəvanda isə bu eniş 40%-i əhatə edir**

Başqa yandan, ipoteka və s. bank xidmətləri sayəsində əldə edilən mənzillərin ödənişlərini həyata keçirməkdə çətinlik çəkən insanlarla inşaat şirkətləri və banklar arasında kəskin münaqişələr yaşanır, məhkəmə çəkişmələrinin sayı isə minlərlədir.

Sözügedən neqativlərin daha da artmasına səbəblərdən biri də söz yox ki, COVİD-19 pandemiyası və ən əsası, ötən il baş vermiş 44 günlük müharibədən doğan hərbi-siyasi fəlakətdir. Bu ərəfələrdə Ermənistanda daşınmaz əmlaklarla bağlı müqavilələr 15% azalıb, paytaxt İrəvanda isə bu eniş 40%-i əhatə edir. Bu isə yuxarıda da qeyd edilldiyi kimi həm tikinti sektoruna, həm də daşınmaz əmlak bazarına öz ağır təsirlərini göstərib. Vergi kodeksində “islahatlar” adı altında qəbul edilən dəyişikliklər nəticəsində qarşıdakı illərdə daha böyük fəlakətlər dayanmaqdadır. Hesablamalara görə, 2023-2024-cü illərdə yaşayış evlərinin inşası ilə bağlı tikintilərin həcmi 80-90% enəcək. Bu fazilər isə digər müvafiq sahələrlə yanaşı, həm də tikinti materialları istehsalına və s. qarışıq inşaat məhsulları sahələrinə köklü zərbə vuracaq. Bu barədə “Erməni inşaatçıları assosiasiyası” bəyan edib.

**“Erməni inşaatçıları assosiasiyası”nın şura üzvü Armen Sakapetoyan: “Ya 5 milyonluq əhali göstəricisinin əldə olunması doğru iddia və göstərici deyil, ya da çox yəqin ki, vətəndaşlar bu illər ərzində çadırlarda yaşamalı olacaqlar”**

Bu kimi məsələlərlə yanaşı, əmlak vergisinin alınması ilə bağlı sərtləşdirilmiş qaydaların, gəlir vergisi üzrə ipoteka güzəştlərinin ləğv edilməsinin, eləcə də qəzalı və bərbad vəziyyətdə olan evlərin sakinlərinin köçürülməsinin, onlara müvəqqəti kirayə yerlərinin verilməsinin, sonradan isə həmin insanların yeni mənzillərlə təmin olunmalarında yaranacaq problemlərinin də mövcudluğunu nəzərə alsaq, vəziyyət kifayət qədər kritik görünür.

Bu zaman sual yaranır: bəs Nikol Paşinyanın 2050-ci ilə ölkə əhalisinin sayının 5 milyona qaldıracağı barədə irəli sürdüyü iddiaları necə olacaq? Halbuki, artıq paytax İrəvanın özündə kəskin ev-mənzil böhranı yaşanır bu isə vətəndaşların ailə qurub-dünyaya uşaq gətirmələrinin qarşısını alır. Sözügedən məsələni “Erməni inşaatçıları assosiasiyası”nın şura üzvü Armen Sakapetoyan istehza ilə izah edib. “Ya 5 milyonluq əhali göstəricisinin əldə olunması doğru iddia və göstərici deyil, ya da çox yəqin ki, vətəndaşlar bu illər ərzində çadırlarda yaşamalı olacaqlar”, deyə o bildirib.



**Revanşist hisslər, qonşu torpaqlarına iddialar Ermənistanın iqtisadi inkişaf şansını kəskin şəkildə məhdudlaşdırır və “xoşbəxt gələcəyini” başqalarının qucaqlarına oturmaqla axtarır**







Təbii ki, erməni vətəndaşları çadırlarda yaşamaq perspektivinə ümumiyyətlə yaxın dayanmayacaqlar, üstəlik normal mənzil şəraitlərinə malik insanların da ölkədən miqrasiya etdikləri faktına diqqət yetirsək ümumiyyətlə, Paşinyanın bu planının realizə olunmayacağı qənaətinə gələ bilərik.

Miqrasiya məsələləri üzrə komissiyanın ictimai şurasının son hesablamalarına görə Ermənistanın “müstəqilliyinin” son 30 ilində ölkədən 1,6-1,7 milyon insan mühacirət edib. Bu isə əhalinin 1/3-dür. Cari ildə isə müxtəlif hesablamalara görə Ermənistanı 150 min insan tərk edəcək. Təbii ki, bunun üçün digər səbəblər də var.

Ötən il Ermənistanın hərbi sahəsi 44 günlük müharibə nəticəsində məhv edildi və bunun müqavilində İrəvanın ara-sıra hələ də revanşçı planları üzərində bəyanatlar səsləndirməsi, konstruktivlikdən kənar fəaliyyət sərgiləməsi, üstəlik yalnız Azərbaycana qarşı deyil, digər qonşularına qarşı da torpaq iddialarında bulunması, regional layihələrdən kənarda qalması və investitiya axınından yararlana bilməməsi Ermənistanın iqtisadi inkişaf şansını kəskin şəkildə məhdudlaşdırır və “xoşbəxt gələcəyini” başqalarının qucaqlarına oturmaqla axtarır.

Bu mənada, kütləvi miqrasiya, eləcə də nikahların o cümlədən doğum sayının kəskin azalması BMT Fondunun optimist proqnozlarına görə olduqca pis nəticələri göstərir. Daha dəqiqq desək, XXI əsrin ortalarında Ermənistanda (əgər mövcud olacaqsa-R.R.) əhalinin sayı 2 milyindan az olacaq.

*Rövşən RƏSULOV*

# "İran özünün çirkin niyyətini ortaya qoyur"

**"İranın Azərbaycana qarşı atdığı addımların, anti-Azərbaycan, anti-türk təbliğatının arxasında təbii ki, bir neçə səbəblərin durduğunu düşünürəm. Birincisi, İranın həmişə ən çox qorxduğu məsələ, Cənubi Azərbaycan faktorudur.**

Çünki, bildiyimiz qədər, İran əhalisinin təqribən 40 faizindən çoxu cənubi azərbaycanlılardan, Azərbaycan türklərindən təşkil olunub və hər zaman onların İran siyasətinə, İranın xarici və daxili siyasət qərarlarına mühüm, ciddi təsirləri olubdur və İran üçün ən təhlükəli vəziyyət məhz Cənubi Azərbaycan faktorudur. Ona görə də İran bu məsələdə mümkün qədər çalışır ki, özünün basqısını artırsın, Cənubi Azərbaycanın da səsini boğsun. Təbii ki, bu heç də mümkün olan hal deyil.

Digər bir məsələ isə, burada İran öz çirkin təbliğatından istifadə edir ki, Azərbaycan onun guya Şimal vilayəti, əyaləti olubdur. Bu cür qələmə verir ki, guya Gülüstan, Türkmənçay müqavilələrindən sonra əlindən çıxıbdır və inandırıcı olmayan, doğru olmayan məlumatlarla daim öz cəmiyyətində belə azərbaycanlılara qarşı bir nifrət hissi formalaşdırmağa başlayıb." Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Samir Hümbətov deyib.

Politoloq vurğulayıb ki, daha bir məsələ, burada türk faktorudur.

"Biz bilirik ki, Türkiyə və Azərbaycan arasında yeganə quru sərhəd bölgəsi Naxçıvanla 11 kilometrlik məsafədir, Qars ərazisinə yaxın ərazidə və bu gün İranı narahat edən odur ki, əgər Azərbaycanı və yaxud Türkiyəni dəstəkləyərsə, burada İranın özünün dövlətçilik maraqları guya təhlükə

**POLİTOLOQ ŞƏRH ETDİ**



altına düşür. Ona görə də İran həm biinci Qarabağ savaşında, həm ondan sonrakı mərhələdə, həm ikinci Qarabağ savaşında və ondan sonrakı mərhələdə daim Azərbaycana qarşı, türklərə qarşı bir antipatiya sərgilədi. İran istər loqistika baxımından, istər ərzaq məhsulları baxımından dəfələrlə Ermənistana yardım edib, kömək edib, dəstəyini göstərib.

Burada digər bir önəmli faktor nədir? İranın atdığı bu cür addımlar daha da intensivləşib. İran təkcə özünün yox, həm də Rusiyanın Ermənistana göndərmək istədiyi yardımları çatdırır. Təbii ki, bu nə dini baxımdan, nə ideoloji baxımdan, nə də qonşuluq baxımından uyğun deyil və İranın atdığı addımlar, sadəcə olaraq bölgədə nifrəti artırır. İran özünün çirkin niyyətini ortaya qoyur. Yəni, bu, onun özünün yaratdığı bir nifrət kimi qəbul olunur,









Hesab edirəm ki, İranın atdığı bu addımlar nəinki dövlətlər arasında, ümumiyyətlə bölgədə baş verəcək bundan sonrakı fəlakətlərin, dövlətlərarası münaqişənin, regional problemlərin məhz özəyini təşkil edir", deyə politoloq Samir Hümbətov bildirib.

***İnam Hacıyev***





Təhmasib Novruzov

# Cılızları qloballaşdıranlar...

***Xaricdə baş verənlərdən, dostlardan, düşmənlərdən yazmışıq, yazırıq və yəqin həmişə də yazacağıq. Çünki Azərbaycan demokratik cəmiyyətdir, xaricdə baş verən hər bir hadisənin və yayılan məlumatların birbaşa da olmasa dolayısı ilə cəmiyyətimizə təsiri qaçılmazdır. Xüsusilə indiki internet dövründə bu, birmənalıdır.***

Ancaq məni başqa bir məsələ narahat edir. Biz o qədər xaricdə baş verənlərə aludə olmuşuq ki, içimizdəki bəzi anormallıqlara ağıllı-başlı müdaxilə etmirik və ya etməkdə maraqlı deyilik. İndi oxucu düşünəcək ki, bəzi bloggerlərimizin, yaxşıları görməyib, ancaq qüsurlardan hay-küylə danışan bəzi video və qəzet "qəhraman"ları kimi, mən də problemlərdən danışacam ki, xalq məni də "qəhraman" kimi tanısın. Yazılarımın daimi oxucuları bilirlər ki, həmişə belə ucuz "qəhramanlıq"dan uzaq olmuşam və qüsur görəndə onu deməkdən çəkinməməklə, ondan imic naminə yararlanmaq fikrindən uzaq olmuşam. Bəzən bilərəkdən ki, mənim dediklərim və yazdıqlarım cəmiyyətin böyük bir kəsimi tərəfindən müsbət qarşılanmayacaq, onu da deməkdən çəkinməmişəm.

Xülasə ki, bu dəfə ölkəmizin içindən yazmağa qərar verdim. Kimsə deyə bilməz ki, Azərbaycan cəmiyyəti süddən çıxma ağ qaşıq kimi tər-təmizdi və əyər-əskiyimiz, çatışmazlıqlarımız yoxdu. Heç indiki iqtidarın başında duran ölkə Prezidenti də bunu gizlətmir və açıq-aşkar ifadə edir. Deməli indiki iqtidar bu qüsurların aradan qaldırılmasında daha çox maraqlıdır və bu təqdirəlayiqdir. Lakin ölkə iqtidarının bütün fəaliyyətini vətəndaşların mənafeyi naminə yönəltməsindən sui-istifadə etməyin özü də axı anormallıqdır! Dövlətdən hər şey istəyib, amma boynunda olan borcunu dövlətə verməkdən müxtəlif üsullarla yayınmağa çalışmaq, dövlət və dövlətçilik anlayışını, vətəndaş və dövlət münasibətlərinin fəlsəfəsini hələ də anlamayanların reallıqdan uzaq tələblər irəli sürməsi kimi anormallıqlar ətrafımızda hər gün baş verir. Vətəndaşlarımızın böyük bir qismi hələ də qəbul etmək istəmirlər ki, dövlətin gücü, qüdrəti hər bir vətəndaşın gücü, qüdrəti deməkdir. Təkcə 44 günlük Vətən Müharibəsindəki tarixi zəfərə necə nail olduğumuzun fərqinə varsaq, bunu anlamaq asan olar ki, dövlətin qüdrətli olması ən ağır problemlərin həllinə yol açan ən mühüm faktordur. Dövlətdən büdcəni kütlənin ehtiyaclarını aşan sahələrə səpələməyi belə tələb edənlərin dövlət və dövlətçilik anlayışından xəbərsiz olduğu şəksizdi. Təbii ki, cəmiyyətdə ehtiyacı olan insanların ehtiyaclarının ödənməsinə yardım etmək dövlətin sosial borclarındandır və ədalət naminə deməliyik ki, Azərbaycan dövləti bunu maksimum edir. Amma hərdən elə məqamlarla qarşılaşırıq ki, təəccüblənməyə bilmirsən. Birini deyim, oxucum məni anlasın ki, məqsədim nədir!

REAL TV-də bir proqram var: "PROBLEM". Cəmiyyətdə vətəndaşlar problemlərini bu proqrama bildirir, proqramın əməkdaşları da gedib onu yerində araşdırır və efirə çıxarır. Heç şübhəsiz ki, bu da REAL TV-nin uğurlu layihələrindəndir və alqışlanmalıdır. Amma belə bir imkandan istifadə edənlərin bəzi lüzumsuz problemlərinə bu qədər ciddi yanaşmaq, hesab edirəm ki, ümumən cəmiyyətin psixologiyasına mənfi təsir edir axı! Məsələn, dünən bu verilişə baxırdım. Gördüm ki, Bakının bir məhəlləsində, doqquz mərtəbəli bir binanın sakini olan beşaltı kişi danışır. Deyirlər ki, binamızın bir blokunda iki pəncərəni gəlib söküb aparıblar ki, təzəsini vuracaqlar, amma gətirib vurmurlar! Gileylənirlər ki, qabaqdan yaşıqlı havalar, qarlı-çovğunlu günlər gəlir, yağış, qar dolacaq bloka... Bir anlıq bu danışan vətəndaşlarımızın bazburtuna baxdım və içimdən bir sual keçdi: bu qədər kişi, qiyməti əlli manat olan iki pəncərəni alıb ora vura bilmirlər ki, bunu bu qədər hay-küylə ictimailəşdirirlər?

Mən o pəncərələri söküb, hələ də yerinə qoymayan təşkilatı günahsız hesab eləmirəm. Ancaq bu elə bir problem deyil axı, onu TV-yə qaldırıb ictimai problem kimi danışasan! Bu və buna bənzər giley-güzarları, bəzən hətta əsassız, qeybət xartakterli "problem"lərin efirə yol tapmasının əsas günahkarları həmin şikayətçilər olsa da, məncə özünə hörmət edən media işçisi onu belə ictimailəşdirməyə rəvac verməməlidir. Elə bu yazını da belə media işçilərinə ünvanlayıram. Cılız problemləri qloballaşdırmaqdansa, gerçək qlobal məsələlərə müdaxilə etmək hər bir jurnalistə daha çox hörmət gətirər.

TƏRS BAXIŞ

# Əli Kərimli separatizmin carçısı rolunda

**Artıq kifayət qədər sübuta yetirilib ki, azərbaycançılıq ideologiyası xalqımızın və müstəqil dövlətimizin birliyini, möhkəmliyini təmin edən əsas amillərdəndir. Milliyyətindən, dini baxışlarından, mədəni mənsubiyyətindən asılı olmayaraq, xalqımızın birliyini, həmrəyliyini, əslində, bəşəriyyət gördü, bu danılmaz reallığın şahidinə çevrildi. 44 günlük Vətən müharibəsində bir daha görmüş olan dünya birliyi, əslində, Azərbaycandakı birlik-bərabərlik faktorunu həm də özünə bir nümunə, etalon kimi qəbul etdi.**

O da sirr deyil ki, bu qələbə anti-Azərbaycan dairələri hazırda da ciddi narahat edir. Bu səbəbdən də ölkəmizə qarşı müxtəlif formalarda qara piar aparılır, cəmiyyətdə çaşqınlıq, ümidsizlik yaratmaq, insanları ruhdan sala bilmək və bu əsasda separatizm meyillərini gücləndiməyə çalışanlar hər vəchlə kirli ideyalarını həyata keçirməyə cəhdlər göstərirlər.

**AXCP sədri bu istiqamətdə lokomotiv rolunu oynayır**

## AXCP sədrinin zəhər girdabında onun tələsinə düşmüş gənclər də batmaqdadırlar

Lakin bu kimi yaramaz, iyrənc, xəyanətə söykənən anti-milli cəhdlərdə başda gedənlərdən biri və birincisi məhz AXCP sədri Əli Kərimlidir. Həm şəxsi mənafelərinin təmin olunması baxımından, həm də xarici ağalarının əlində siyasi oyuncağa çevrilməklə.

Təəssüf ki, AXCP sədrinin zəhər girdabında onun tələsinə düşmüş gənclər də batmaqdadırlar. Son günlər, xüsusilə hazırkı həssas məqamlarda Əli Kərimli xaricdəki anti-Azərbaycan dairələrdəki ağalarından yeni tezislər alır və trolları vasitəsi ilə fəaliyyətə başlayıb. Xüsusilə, separatçılıq toxumlarının səpilməsi yönündə cəbhəçi sədr və trolları necə deyərlər, əl-ayağa düşməyə başlayıblar. Bu xainlər yığnağı şüuraltı olaraq cəmiyyətdə etnik, dini, mədəni ayrı-seçkilik fikirləri formalaşdırmağa çalışır, buna aid olan heç bir məsələ və hadisə olmadığı halda cəmiyyətdə ayrı-ayrı millətlərin nümayəndələrinə qarşı “basqı”, “təzyiq”, “ayrı-seçkilik”, “etnik sıxışdırılma” tipli vəziyyətlərin yaradılması təəssüratını yaratmağa çalışırlar.





## Əli Kərimli, İlham Hüseyn, Səadət Cahangir, Qənimət Zahid, Sevinc Osmanqızı...

Bəs daha kimlərdir onlar? Əldə etdiyimiz məlumata görə, bu işdə Əli Kərimlinin trolbaşılarından olan İlham Hüseyn, Səadət Cahangir, Qənimət Zahid, Sevinc Osmanqızı və eləcə də digərləri xüsusilə seçilirlər. Onlar öz xəyanətkarlıq məqsədləri daşıyan statuslarında separat meyilləri sətraltı tərzdə insanların şüuruna yeritməyə cəhdlər göstərirlər. Nəticədə, başda AXCP sədri Əli Kərimli olmaqla cəbhəçilərin bu əməllərindən bir daha bəlli olur ki, bu manqurtlaşmış dəstənin xislətləri heç vaxt dəyişməyəcək. Hətta qəbir belə onların bellərindəki “qozu” düzəldə bilməz. Elə isə artıq bu kimi meyillərin qarşısının alınması üçün hüquq-mühafizə orqanlarının hərəkətə keçməsi tələbi yaranmağa başlayır. Necə deyərlər, ilanın başını yuvasında əzmək gərəkdir!

*Rövşən RƏSULOV*





## “Pul yoxdursa, müxalifətçilik də yoxdur”

### - PARTİYA SƏDRİ MÜNASİBƏT BİLDİRDİ

“Əli Kərimli indi yox, bu partiyaya sədr seçiləndən bilirdi ki, onun hakimiyyətə gəlmək, ölkəni idarə etmək şansı yoxdur. Ən azı ona görə ki, qarşısındakı iqtidarın idarəçilik bacarığı, bütün fəaliyyətini xalqın, ölkə vətəndaşlarının həyatının firavanlığına, dövlətin qüdrətlənməsinə, daha xoşbəxt gələcəyimizin təminatına yönəltməsi, xalqın da belə bir iqtidara “hə” deməsi əlilərin hakimiyyətə gəlmək şansını sıfırlayırdı. O zaman bunu bildiyi halda otuz ilə yaxın özünü bu iqtidara siyasi müxalifət kimi aparması hansı məqsəd güdürdü? Təbii ki, qazanc, pul, mal-dövlət əldə etmək istəyir!”. Bunu SİA-ya “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov deyib.

Onun sözlərinə görə, on illər boyu həm Azərbaycanın siyasi səbatsız adamlarını aldadıb ardınca aparmağa, həm də bu qaragüruh kütlələrdən istifadə edib özünü xaricdəki anti-Azərbaycan qüvvələrə “ana müxalifət” kimi sırıyırdı: “Yaxşıda pul qazanırdı. İndi artıq tarixi zəfərin indiki iqtidara qazandırdığı imici yaxşı anlayan həmin qüvvələr əlilərə pul verməkdən vaz keçirlər. Bu halda onun havayı müxalifətçilik etməsindən nə qazanacaq? Sadəcə, bu qaragüruhun içində kimlərinsə ona yerini göstərə biləcəyini düşünüb də, hələ ki, yalançı müxalifliyini davam etdirmək istəyir. Tezliklə buna da son qoyduğunun şahidləri olacağıq. Siyasi biznesmenliyin qanunudur bu. Pul yoxdursa, müxalifətçilik də yoxdur”.

*Gülyana*

# “Çürüyüb” dəyərdən düşən erməni qızılları...

**Ermənilərin “168 jam” nəşri Ermənistanın müstəqilliyinin 30 -cu ildönümünü daha “rəngarəng”, daha “möhtəşəm” keçirmək üçün hökumətin Rusiyadan xüsusi pilotsuz uçuş aparatları sifariş verdiyi barədə yazı dərc edib. Nəşrin yazdığına görə, həmin pilotsuz uçuş aparatları işıq şousu təşkil edib, insanları əyləndirməkdə əvəzsiz olsa da.., amma göstərdiyi xidmət müqabilindəki istəyi çox bahadır. Yəni həmən aparatların 10 dəqiqəlik xidməti müqabilində ruslar 110 dollar istəyirlər (..burada deyirlər ey, Allah insafınızı kəssin).**



Amma deyim ki, bu, hələ hamısı deyil, yəni bundan əlavə, bu pilotsuz təyyarələrə xidmət edən personal da Rusiyadan gəlməlidir ...onlara xüsusi xidməti, oteldə yerləşmələrini, eləcə də digər xərcləri də sifarişçilər, yəni erməni hökuməti ödəməlidir.

Deyim ki, burda mənim yadıma bizdə olan o, “...yetib hər yarağım, qalıb saqqal darağım” məsəli düşür. Təbii ki, deyir, “kemal halva yeyər, puluna minnət”...amma erməni nəşri “dad” eləyib yazır: “... tədbirin işıq şousu da daxil olmaqla təxmini hesablama xərcləri ən azı bir milyon dollardan çox vəsait tələb edir”.

...Və bu, xəzinənin cari xərclərin qarşılanması baxımından ciddi problemlərlə üzləşdiyi bir ölkə üçün həddindən artıq çoxdur. Bundan əlavə, tədbirə çəkiləcək xərclərin dövlət büdcəsindən ayrılacağı şəksizdir. Çünki bu gün özünü meydanda tək qoyan Nikola bayram şənlikləri ilə kənardan nə maddi, nə də mənəvi kömək göstərən, demək olar ki, yox idi.

...Yaxşı indi erməniləri narahat edən nədir? Məsələ bundadır ki, onlar son vaxtlar ölkədə pensiyaların gecikməsi, büdcədəki maliyyə çatışmazlığı səbəbindən tibb müəssisələrinə dövlət sifarişlərinin ləğv edilməsini daha çox belə “bəfər” tədbirlərə sərf edilən israfçılıqla əlaqələndirirlər.

Yeri gəlmişkən, bu yaxınlarda Ermənistanda “hüquqi aktların dərc edilməsi üçün vahid internet saytında qiymətli metalların və qiymətli daşların dövlət ehtiyatlarının özgəninkiləşdirilməsinə dair tədbirlər proqramının təsdiq edilməsi barədə” qərar layihəsi meydana çıxıb. Proqramın hələ ki, 2022-2024-cü illər üçün nəzərdə tutulduğu da bildirilir.

...Deməli, həmin proqrama görə, “Qökran” dövlətə məxsus qızılları, qızıl və gümüşdən hazırlanan əşyaları, brilyantları və digər qiymətli əşyaları tender yolu ilə yarım milyard drama, yəni 3 milyon dollardan bir az artıq qiymətə satmaq niyyətində olduğu meydana çıxıb. Deyim ki, söhbət burada 76 kiloqram 643 qram ağırlığında zərgərlik məmulatından gedir.

Onu da deyim ki, “Qökran” ermənilərin Maliyyə Nazirliyinin nəzdində qiymətli metalların və qiymətli daşların saxlanması, sərbəst buraxılması və istifadəsi üzrə yaradılan dövlət qurumudur.

...Yoxun üzü qara olsun... amma deyim ki, gərək “kasıb da yediyi ilə geydiyini bilsin”. Ermənilərə deyən gərək, bu ağır gündə ermənilərin özlərinin də dediyi kimi, gəlib baxmayacaqlarına söz verdikləri işıq şousu kimə lazım idi?

... Söhbətdən uzaqlaşmayaq... Deməli, ermənilər burada da, yəni “al-ver məsələsində” də öz “məğrurluqlarını, əyilməzliklərini” nümayiş etdirməkdən çəkinmirlər. Belə ki, onlar dövlət əmlakı olan qızıl satışını həyata keçirmələrini ölkə xəzinəsinin boş olması ilə yox, sadəcə olaraq, eksperiment keçirmək istədikləri ilə əlaqələndirirlər.

Hətta hamıya inandırıcı kimi görünsün deyə, əntiqə bir arqument də gətirirlər. Məlum olur ki, 1996-cı ildən bəri adıçəkilən zərgərlik əşyalarına baxan yoxdur deyə o da satılmır... 20 ildir ki, anbarda toz yığaraq təqdimat və ən əsas dəyərini itirir.

...Təəccüblüdür, görən çürüyüb dəyərdən düşdüyünü niyə demirlər?

Yeri gəlmişkən xatırladaq ki, hələ 2014 -cü ildə də ermənilərin Maliyyə Nazirliyi oxşar bir təşəbbüs irəli sürmüşdü. Qeyd edək ki, həmən vaxt da ölkə qlobal maliyyə və iqtisadi böhranın nəticələrini yaşayırdı.

Belə görünür ki, bu gün Ermənistanda müharibənin, pandemiyanın nəticələri artıq qabarıq şəkildə özünü göstərməyə başlayır. Teorik olaraq, xalqa məxsus lüks malları dövlətin “qutusundan” çıxarıb satmaq və əldə olunan gəlirdən sosial problemləri həll etmək üçün istifadə etmək bunun bariz nümunəsi kimi görünür.

***Ağasəf Babayev***

# Laşa Breqvadze: “Azərbaycan öz gücünü 44 günlük müharibə zamanı praktikada göstərdi”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

## *Analitik: “Azərbaycan tərəfinin qələbəsi ölkənin məsələyə düzgün yanaşdığını, bu məsələdə irəliləyişdən geri qalmadığını göstərir”*



**Gürcüstan Strateji Araşdırmalar Mərkəzinin (GSAC) təhlükəsizlik üzrə baş elmi işçisi Laşa Breqvadze “Caliber” analitik mərkəzinə müsahibəsində müharibədən sonrakı Azərbaycan-Ermənistan münasibətləri və regionda yaranmış vəziyyətlə bağlı maraqlı məqamlara toxunub.**

***-Sizcə, Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibə Ermənistan-Azərbaycan münaqişəsinə son qoydumu?***



-Düşünürəm ki, 44 günlük müharibə bir müddət Ermənistan-Azərbaycan münaqişəsinə son qoydu. Rusiya Sülhməramlı kontingenti Azərbaycan ordusunun daha da irəliləməsinə imkan verməyəcək. Erməni tərəfi isə hələ də həm avadanlıqlarda, həm də şəxsi heyətdəki itkiləri bərpa etməlidir.

***- Keçən ilin sentyabrında Qarabağda hərbi əməliyyatların şiddətlənməsi başlayanda, bunun genişmiqyaslı bir müharibəyə çevriləcəyini, bunun nəticəsində Azərbaycanın öz ərazilərini qaytaracağını gözləyirdinizmi?***

- Bundan əvvəl tərəflər arasında baş verən yerli atışmaların daha şiddətli hərbi əməliyyatlara çevriləcəyi çılpaq gözlə aydın idi, çünki Azərbaycan uzun müddətdir silah alışı və qoşunların təliminə böyük məbləğdə pul xərcləmişdi. Və Azərbaycan tərəfinin qələbəsi ölkənin məsələyə düzgün yanaşdığını, bu məsələdə irəliləyişdən geri qalmadığını göstərir. Bu, müharibənin 44 günü ərzində praktikada göstərildi.

***- 44 günlük müharibədən sonra Cənubi Qafqazdakı qüvvələrin geosiyasi uyğunlaşmasını necə görürsünüz?***

- Əlbəttə, keçən ilki müharibədən sonra Cənubi Qafqazda vəziyyət dəyişdi, amma o qədər də dramatik deyil. Bölgədə yeni əhəmiyyətli oyunçu- Türkiyə meydana çıxdı, amma qalan hər şey dəyişməz olaraq qalır. Əlavə olaraq, daha ağır çəkili bir oyunçunun da olduğunu unutmamalıyıq - bölgədəki mövqeyini qorumağı bacaran Rusiya. Həm Türkiyə, həm də Rusiya bölgəyə hakim olmağa çalışacaq, amma nəticədə liderliyi kim qazanacaq, bunu zaman göstərəcək. Çox şey bu iki gücün bir -biri ilə nə dərəcədə barışa biləcəyindən asılı olacaq, onlar necə barışmağı bilirlər, bunu bir neçə dəfə çox göstərmişlər.

***İran faktorunu da xatırlamaq lazımdır. İran həm Azərbaycan, həm də Ermənistan üçün çox vacib rol oynaya bilər.***

Gürcüstanla əlaqədar olaraq isə deyə bilərəm ki, Türkiyənin strateji tərəfdaşı olmasına və Azərbaycanla Ermənistanın yaxın qonşusu olmasına baxmayaraq, Tbilisinin öz mövqeyini nə qədər dəyişəcəyi hələ ki, məlum deyil. Ancaq düşünürəm ki, hər halda dəyişikliklər gələcək və zaman keçdikcə daha da aydın görünəcək.

Qərb, çoxbilmiş bir qoca kimi, prosesi seyr edərkən vəziyyəti qiymətləndirir və hələlik müdaxilə etmir, amma bu, həmişə belə davranacağı mənasına gəlmir. Başqa sözlə, indiki zamanda hər şey çox qeyri-müəyyən və dumanlı görünür, necə deyərlər, gözləmək və görmək lazımdır. Geosiyasi vəziyyəti qiymətləndirmək üçün hələ də gözləmək lazımdır. Hər şey ilk baxışdan göründüyü qədər aydın deyil.

***- Azərbaycan ictimaiyyətini maraqlandıran digər məsələ Rusiya sülhməramlıları mövzusudur. Sizcə, beş illik müddət bitdikdən sonra Qarabağda qalacaqlarmı?***

- Fikrimcə, sülhməramlılar 2025-ci ildə ilk 5 illik müddəti bitdikdən sonra da qalacaqlar. Rusiya bunun üçün çalışacaq. Başqa sözlə, Moskva bütün mümkün vasitələrlə bölgədə qalmağa çalışacaq, çünki Kremlin, xüsusən də Rusiyanın imperialist siyasətinin bölgədəki təsirini azaltması və hətta daha da çox itirməsi qəbuledilməzdir. Burada onun rəqibi Türkiyə də var. Rusiya Türkiyənin Cənubi Qafqazda olduğundan daha güclü mövqe tutmasına icazə verməyəcək.

***- Hadisələrin sonrakı inkişafını necə görürsünüz?***



- Hadisələrin daha da inkişafı ilə bağlı deyə bilərik ki, İranla Azərbaycan arasında vəziyyətin gərginləşməsi olduqca mümkündür və bu vəziyyət Rusiya tərəfi üçün qənaətbəxşdir. Daha çox deyə bilərəm ki, Moskva buna qeyri-rəsmi şəkildə kömək edə bilər ki, sonradan vəziyyətə üçüncü tərəf kimi “müdaxilə etsin” və problemi “böyük qardaş” rolunda həll etsin. Beləliklə, beynəlxalq aləmin gözü qarşısında Azərbaycanın qalib ölkə kimi nüfuzunu düzəltməyə və Bakıya İrəvanla bərabər səviyyədə yanaşmağa çalışacaqlar, eyni zamanda Azərbaycan da Rusiyaya borclu qalacaq.

***Tərcümə: Elçin Bayramlı***

# Allah səvabına layiq olmayanlar...

**Ötən gün ABŞ-ın İrəvandakı səfiri Linn Treysi erməni televiziyasına verdiyi müsahibəsində “Dağlıq Qarabağ xalqının öz müqəddəratını təyin etməsi münaqişənin nizamlanmasının əsas prinsiplərindən biri olub və olaraq qalır”-deyə bildirib. Xanım siyasətçi üç ölkə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistan baş nazirinin ötən il 9-10 noyabr tarixlərində imzaladığı üçtərəfli bəyanatı isə “barışıq” adlandırıb. Əslində elə də layiq olmasan da amma, “əhsən sənə”.**

Deyim ki, xanım Treysi bu açıqlaması ilə onda amneziya xəstəliyinin əlamətlərinin olduğuna şübhə yeri qoymur. Çünki həmin xəstəliyin daşıyıcıları olanlarda xəstəliyin başlanmasından sonra hadisələrin yaddaşı pozulur.

...Yadımdadır, tələbə vaxtı hörmətli müəllimlərimdən olan Nurəddin Babayev mühazirələrinin birində, mühazirədən kənar bir fikir səsləndirmişdi. İndiyə qədər yadımdadır. Nurəddin müəllim deyirdi ki, bu gün bəzi rayonlarda (1970-80-ci illər) partiya işində yarıtmayanları, çox vaxt rayon qəzetinə “redaktor” göndərirlər.

...Hə indi nə bilmək olar, bəlkə də Linn Treysi də belələrindəndir. Yəni öz ölkəsindəki yarıtmaz işinə görə, İrəvana sürgün... göndərilib.



Yeri gəlmişkən, burada bir müddət bundan əvvəl Beynəlxalq Münaqişələrin Həll Mərkəzinin saytında dərc olunmuş ATƏT Minsk qrupunun keçmiş ABŞ həmsədri Riçard Hoqlandın məqaləsi yada düşür.

O öz məqaləsində yazırdı ki, Dövlət Departamentindəki işindən təqaüdə çıxanda ABŞ-ın Minsk Qrupunun müvəqqəti həmkarı olaraq onun işə qayıtmasını istəyiblər: “...Düzünü desəm, mənə Minsk qrupunda ABŞ -ın müvəqqəti həmsədri olmaq təklifi gələndə, əvvəlcə bir az tərəddüd etdim. Çünki Dövlət Departamentində belə bir vəzifəni karyera yüksəlişi kimi qiymətləndirilmirdi. Amma buna baxmayaraq, çalışmaq məcburiyyətində qaldım”.

Bundan sonra amerikalı diplomat etiraf edir: deməli, müvəqqəti də olsa yaşadığımız beş ulduzlu otellər, yeməyimiz də “ləbləbikişmiş”... Etiraf edim ki, çox vaxt belə komfort həyat bizə nə işlə məşğul olacağımızı belə unutdururdu.

Amma maraqlı da olsa, Riçard Hoqland səfir xanım Linn Treysidən fərqli olaraq bəzi reallıqları sonradan da olsa etiraf edib.

Belə ki, o deyildiyi kimi, sonradan Minsk qrupunun fəaliyyətinin məhdud olduğunu, regional qüvvələrin dəstəyi olmadan münaqişəni həll etmək iqtidarında olmadığını etiraf etmək məcburiyyətində qaldı. Amma arxada qalan 30 ildə nəinki üç həmsədr, həm də onların ətraflnda quyruq bulayanlar müftə yeyib keyf elədilər. Sonda isə yenə də Hoqland “...bu münaqişənin müharibəsiz həll yolu yoxdur” qənaətinə gəldi.

...İndi isə Amerika səfirinin birdən xalqın “öz müqəddəratını təyin etmə haqqını” və ərazinin “statusunu” xatırlatması əslində onun dəqiq deməkdə çətinlik çəksəm də, amma nəyinəsə (?) dəlalət edir. Görünür, bütün keçən ili Linn Treysi heç bir xəbərin çatmadığı yerlərdə keçirib. Yəqin buna görə də onda amneziya yenidən şiddət eləməyə başlayıb.

...Adamın beləleri üçün Allahdan səvab diləməyə də dili gəlmir.

***Ağasəf Babayev***

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

24 sentyabr

QARABAĞ AZƏRBAYCANDIR!


## Benzema La Liqanın tarixinə düşdü



**Futbol üzrə İspaniya La Liqasının 6-cı turunda "Malyorka" ilə matç "Real"ın futbolçusu Kərim Benzema üçün əlamətdar olub. Belə ki, 33 yaşlı hücumçu sözügedən oyunda dubl edib. Bununla da Benzema yerli çempionatda 200-cu qolunu vurub. Beləliklə, fransalı oyunçu La Liqada 200 qol həddinə çatan 10-cu futbolçu olub.**

Qeyd edək ki, Benzema 2009-cu ildən Madrid təmsilçisində oynayır. Əlavə edək ki, "Real" - "Malyorka" görüşü "kral klubu"nun 6:1 hesablı qələbəsi ilə başa çatıb.

## Bu dəfə dava malikanə davasıdır...



Hollivud ulduzları Bred Pitt və Ancelina Coli arasında birlikdə əldə edilmiş əmlak bölgüsü üstündə məhkəmə çəkişmələri davam edir. Bu dəfə məhkəmə prosesinin səbəbi Fransada yerləşən "Chateau Miraval" malikanəsi olub. Malikanənin qiyməti 60 milyon dollardan çoxdur. Aktyor deyir ki, keçmiş həyat yoldaşı birinci il deyil ki, ona daşınmaz əmlak payını əldə etməkdə mane olur. Ancelina eks-həyat yoldaşının maliyyə maraqlarına məhəl qoymayaraq, öz aksiyalarının 40%-ni satmağa çalışır.

"Ancelina Colinin şirkəti Bred Pittin malikanəyə yatırdığı inanılmaz miqdarda pul və səylərini nəzərə almadan öz gəlirini almaq istəyir. Son dörd il ərzində Colinin "Nouvel" şirkəti müntəzəm olaraq illik hesabatın təsdiqini və menecerin səlahiyyət müddətinin uzadılmasını təxirə salırdı", - iddia ərizəsində deyilir.

Bredin ətrafından olan insayder bildirib ki, keçmiş həyat yoldaşının addımı aktyoru şoka salıb. Xatıradaq ki, məhz "Chateau Miraval" malikanəsində Pitt və Coli nikaha giriblər. İki il sonra isə Ancelina boşanmaq üçün məhkəməyə müraciət edib. Sonradan məlum olub ki, aktrisa keçmiş sevgilisini aqressiv davranışda və alkoqol asılılığında ittiham edirdi.

## İpoteka qaydaları sadələşdirilir?



### İqtisadçi aydınlıq gətirdi

"Cənab Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzaladı. Fərmandakı dəyişikliklər bilavasitə kredit fondunun fəaliyyəti ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, cənab Prezidentin bu fərmanı zamanın və iqtisadi reallıqların nəzərə alınaraq qanunvercilik aktlarının və hüquqi bazanın daha da təkmilləşdirilməsinə xidmət edir: "Dəyişiklik özündə bir neçə istiqaməti ehtiva edir. Belə ki, əvvəl 6-cı maddəyə əsasən subsidiya sahibkarlar tərəfindən 2018-ci il yanvarın 1-dən 2020-ci il dekabrın 31-dək banklardan manatla alınan kreditlərə hesablanmış faizlərə görə verilməsi nəzərdə tutulurdusa bu müddətin 2022-ci ilin 31 dekabrına qədər uzadılması nəzərdə tutulur. Digər bir dəyişiklik isə odur ki, orada qeyd olunub ki, bütün sahələr üzrə götürülmüş kreditlərin faizlərinə subsidiya yox, Fondun Himayəçilik Şurasının müəyyən etdiyi iqtisadi fəaliyyət sahələrinə uyğun istiqamətlər üzrə olan həmin sahələrə verilmiş kreditlərin faizlərinə uyğun verilir. Bundan əlavə digər dəyişikliklər isə "kredit verildikdən sonra ilk 12 ay üçün" ifadəsi dəyişdirildi və "verildiyi tarixdən ilin sonuna qədər" ifadəsi ilə əvəz olunub. Yəni əvvəl nəzərdə tutulmuş tarix tam olaraq 365 günü əhatə edirdisə, bu fərmandan sonra o müddət verildiyi təqvim ilinin sonunda tamamlanır".

*Arzu Qurbanzadə*

## Anadan duyğusal mesaj

Dünən məşhur aktyor Əli Sunalın doğum günü olub. SİA xarici mətbuata istinadən xəbər verir ki, ilk şənliyi evdə həyat yoldaşı Nazlı Sunalla uşaqları Narin və Nil ilə birlikdə edib. O, mini tortla 44 yaşını tamamlayıb. Anası Gül Sunal, Əli Sunala aşağıdakı sözləri deyib: "Kiçik bir körpə ikən səni sevdiyim kimi, indi də sevirəm. Sentyabrın 22-də, saat 13:15-də, atanın dediyi kimi, "deşikli yanaqları" olan bir körpə dünyaya gəldi. Bu körpə böyük bir övlad, böyük bir qardaş, əla ər və böyük bir ata oldu".



*Ayşən Vəli*

## ELAN

Səs qəzetinin 23 sentyabr №172 sayındakı elanda buraxılmış texniki səhvə düzəlişi nəzərinizə çatdırırıq.

***

Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı 23.10.2021-ci il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.

## DİQQƏT: Məktəbdə uşaqları virusdan necə qorumalıyıq?



"Məktəblərin açılması ilə əlaqədar uşaqlar arasında virusa yoluxmanın sayının arta biləcəyi ehtimalı qaçılmazdır. Virus infeksiyası hava damcı üsulu ilə yayıldığı üçün müəyyən olunmuş profilaktik tədbirlər görülməlidir. Bu baxımdan valideynlər də çox diqqətli olmalıdır. Uşaqların virusa yoluxmaması üçün şəxsi gigiyenalarına xüsusi diqqət etməli, əşyalara toxunduqdan sonra əlini göz və ağız nahiyəsinə vurmamalı, tibbi maskalardan israfədə etməli, yoldaşları ilə məsafə saxlamalıdırlar". Bu sözləri SİA-ya açıqlamasında həkim, pediatr Səidə Əhmədova deyib. Onun sözlərinə görə, valideynlər uşaqların düzgün qidalanmasına diqqət yetirməlidirlər: "Marketlərdən alınan konservantlardan istifadələrinə yol verməsinlər. Uşaqlara verilən qidalar, meyvətərəvəz təmiz yuyulmalıdır. Bol maye içmələri tövsiyyə olunur".

Həkim sözlərinə belə davam edib: "Uşaqlara verilən vitamin əlavələrinin əsası olmalıdır. İnsan doğulduğu andan immun sistemi formalaşmağa başlayır. 5 yaşa qədər uşaqlar ətrafdakı infeksiyalara qarşı daha həssas olurlar. Təəssüf ki, bugünə qədər dünyada immun sistemi qüvvətləndirən dərman kəşf olunmayıb. Ümumiyyətlə isə immun sistemə toxunmaq olmaz. Uşaqlarda hansısa vitamin çatışmazlığı bir simptom və ya xəstəlik kimi özünü büruzə verir.Ona görə verilən vitaminlər həkim təyinatına əsasən qəbul edilməlidir".

*Ayşən Vəli*

## Başsağlığı

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Laçın rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən İlqar İlyasova anası

**Mülayim İlyasovanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**